# Azərbaycan İlahiyyat İnstitutu Bülleten

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 1
yanvar-iyun
2020


Ali YÖK tərəfindən tanınan ali təhsil müəssisələrinin siyahısına daxil olunub səh.5



YENİ TƏYİN OLUNAN REKTOR KOLLEKTİVƏ TƏQDİM EDİLİB səh.24



Azərbaycan İlahiyyat İnstitutu beynəlxalq əlaqələrini genişləndirir səh.14



BİNƏQƏDİ RAYONUNDA ABİTURİYENTLƏRLƏ GÖRÜŞ KEÇİRİLİB səh.12

“Multikultural və dinlərarası dialoqda dini kimlik: Azərbaycan və Belçika modeli” mövzusunda videokonfrans keçirilib

səh.30



Mir Məhəmməd Kərim Bakuvinin “Dua məcmuəsi” kitabı Azərbaycan İlahiyyat İnstitutuna hədiyyə edilib səh.29



səh.24 «Oruc ibadətinin hikmətləri» mövzusunda vebinar təşkil olunub





Fələstinin ölkəmizdəki Fövqəladə və Səlahiyyətli Səfiri ilə görüş keçirilib səh.14



səh.6-9

AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTUNUN «DİN, MƏDƏNİYYƏT VƏ CƏMİYYƏT-2» MÖVZUSUNDA TƏŞKİL ETDİYİ «QIŞ MƏKTƏBİ»



səh.31

Azərbaycan İlahiyyat İnstitutunda məzunlarla onlayn görüş keçirilib

# Azərbaycan İlahiyyat İnstitutunda imtahan sessiyası başladı

Azərbaycan İlahiyyat İnstitutunda (AİÎ) 7 yanvar 2020-ci il tarixdə payız semestrinin qış imtahan sessiyasına start verilib. AİÎ-nin Elm və innovasiyalar üzrə prorektoru Aqil Şirinov auditoriyalarda imtahanın gedişatını izləyib.

Yanvarın 31-dək davam edəcək sessiya təsdiq edilmiş imtahan cədvəlinə uyğun olaraq yazılı, zəruri hallarda isə şifahi formada keçirilir. Sessiya dövründə tələbələrin biliyinin obyektiv qiymətləndirilməsi, şəffaflığın təmin edilməsi prioritet seçilib. İmtahanlar keçirilərkən təhlükəsizlik tədbirlərinin təşkili, cavabların müəyyənləşdirilmiş meyarlar əsasında qiymətləndirilməsi istiqamətində zəruri tədbirlər görülüb.

Qeyd edək ki, sessiyanın gedişi zamanı imtahanların nəticəsindən yarana biləcək narazılıqların araşdırılması və həll edilməsi məqsədilə Operativ Qərargah yaradılıb. Qərargaha daxil olan müraciətlərin, hər bir şikayətin qısa müddətdə çevik şəkildə araşdırılıb, lazımi tədbir görülməsi nəzərdə tutulub.

İnstitutun foyesində müraciət və təkliflər üçün qutular yerləşdirilib. Tələbələrə yarana biləcək problemlərin aradan qaldırılması üçün yaxından köməklik göstərilməsi məqsədilə şərait yaradılıb.

Sessiya dövründə AİÎ-də imtahanlar ictimaiyyətə açıq keçiriləcək. İmtahan sessiyası dövründə valideynlərin, ictimaiyyət nümayəndələrinin iştirakı ilə "Açıq qapı" günlərinin təşkil olunması nəzərdə tutulub.

Ali təhsil müəssisəsinin kitabxanasında tələbələrin imtahanlara hazırlığı üçün lazımi şərait yaradılıb. Onlar fasiləsiz internetlə təchiz olunmuş kompüterlərdən istifadə edə bilərlər.

Məlumat üçün bildiririk ki, İnstitutun 2019/2020-ci tədris ili qış



imtahan sessiyası yazılı və şifahi olaraq, imtahanlar arasında müddət isə iki gün intervalla keçiriləcək.

## AİÎ-nin "Din araşdırmaları" jurnalı dərc olunub

Azərbaycan İlahiyyat İnstitutunun (AİÎ) elmi fəaliyyətinin əsas göstəricilərindən biri olan "Din araşdırmaları" jurnalının üçüncü sayı dərc edilib.

"Din araşdırmaları" jurnalının məqsədi ölkəmizdə və dünyada din sahəsində tədqiqat aparan alimlərin məqalələrini elmi ictimaiyyətə təqdim etməkdən ibarətdir. İldə iki dəfə dərc olunan jurnalın növbəti sayında 19 məqalə və 1 kitab haqqında resenziya yer alıb. Din sosiologiyası, din psixologiyası, İslam məzhəblər tarixi, hədis, təfsir, kəlam, tarix, fəlsəfə, İslam hüququna dair qələmə alınmış elmi məqalələr öz sahəsinin peşəkar və nüfuzlu tədqiqatçıları tərəfindən təqdim edilib. Məlumat üçün bildirək ki, jurnalın bu sayında yeni – "Resenziya" bölməsinə yer ayrılıb. Dərginin redaksiya heyətinin üzvləri Azərbaycanla yanaşı, Türkiyə, Rusiya, İran və İsveçrənin təhsil müəssisələrində çalışan tanınmış alimlərdir.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu ali dini təhsil üzrə ixtisaslaşmış müəssisədir. İnstitut din sahəsi də daxil olmaqla, ictimai elmlərin müxtəlif istiqamətlərində monoqrafiya, dərslik, dərs vəsaiti, proqram və məqalələrin nəşrinə üstünlük verir.

Məlumat üçün bildirək ki, akademik nəşrlər ali təhsil müəssisələrinin elmi fəaliyyətinin əsas göstəricilərindən biridir. Gələcəkdə "Din araşdırmaları" jurnalının tanınmış beynəlxalq indekslərə daxil edilməsi nəzərdə tutulur.

Jurnalın nəşr qaydaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) elmi jurnallar qarşısında qoyduğu tələblərə, həmçinin bu sahədəki beynəlxalq standartlara uyğun olaraq hazırlanıb. "Din araşdırmaları" jurnalında bir çox alimin ilahiyyat, fəlsəfə, psixologiya, sosiologiya və digər elmlərə dair sanballı məqalələri çap olunur.



# 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə əlaqədar tədbir təşkil olunub

Azərbaycan İlahiyyat İnstitutunda (Aİİ) 20 yanvar 1990-cı ildə baş vermiş faciənin otuzuncu ildönümünə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə faciə zamanı qətlə yetirilmiş insanların əziz xatirəsi birdəqiqəlik ehtiram sükutu ilə yad edilib.

Mərasimi giriş nitqi ilə açan İnstitutun rektoru Ceyhun Məmmədov vurğulayıb ki, ali təhsil müəssisəsi gənclərin milli və vətənpərvərlik ruhunda tərbiyə edilmələri, mənəvi dəyərlərin təbliği istiqamətində müxtəlif tədbirlər həyata keçirir. O qeyd edib ki, Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq salnaməsi kimi yazılan "20 Yanvar" faciəsi barədə gənclərimiz geniş məlumatlandırılmalı, onlarda vətənpərvərlik hissləri daha da yüksəldilməlidir.

Rektor C.Məmmədov daha sonra bildirib ki, 1990-cı ilin 20 yanvar gecəsi Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub. Doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin gecə canlarından keçərək, şəhidlik zirvəsinə ucalıblar.

Aİİ rəhbəri vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev "20 Yanvar" faciəsi zamanı şəhid olanların ailələrinə, sözügedən qanlı qırğında əlil düşmüş vətəndaşlarımıza diqqət və qayğısını heç zaman əsirgəməmişdir. Ümummilli Liderin layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyeva tərəfindən ölkəmizin azadlığı və müstəqilliyi uğrunda şəhid olmuş və sağlamlığını itirmiş şəxslərə həmişə xüsusi diqqət yetirilir, onların yaşayış səviyyəsinin yaxşılaşdırılması, sosial problemlərinin həlli istiqamətində mühüm tədbirlər həyata keçirilir.

Erməni Təcavüzünün Tanıdılması İctimai Birliyinin sədri, Qarabağ veteranı Səriyyə Cəfərova bu qanlı olayın Azərbaycan xalqının iradəsini, Milli Azadlıq uğrunda mübarizə əzmini qıra bilmədiyini, həmin gecədə şəhid olmuş Azərbaycan oğullarının Vətənin müstəqilliyinə yol açdıqlarını diqqətə çatdırıb. Bildirib ki, bu təlatümlü hadisə xarakter etibarilə faciə olsa da, şərəfli tariximizdir. Ona görə də "20 Yanvar" Azərbaycan tarixinin milli qürur günü kimi qeyd olunur. Şübhəsiz ki, Vətənimiz Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların əziz xatirəsi daim yad ediləcək və qəlbimizdə əbədi yaşayacaqdır.

Daha sonra ali təhsil müəssisəsinin birinci kurs tələbəsi, Aİİ Tələbə Gənclər Təşkilatının sədri Nicat Hüseynov "20 Yanvar" faciəsi zamanı gənclərin Vətən uğrunda göstərdiyi misilsiz şücaətindən bəhs edib. O, hazırda gənclərimizin üzərinə düşən vəzifələrdən danışarkən bildirib ki, müstəqil ölkəmizin suverenliyi, haqq səsimizin beynəlxalq arenaya çatdırılması uğrunda sıx şəkildə birləşməli, birgə mübarizə aparmalıyıq.

# İctimai Nəzarət Şurasının üzvləri və KİV nümayəndələri payız semestrinin qış imtahan sessiyasının gedişatını izləyiblər

Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) rəhbərliyi yanında İctimai Nəzarət Şurasının üzvləri və KİV nümayəndələri 17 yanvar 2020-ci il tarixdə payız semestrinin qış imtahan sessiyasının gedişatını izləyib, imtahan keçirilən auditoriyalarda olub, ayrı-ayrı fənlər üzrə qış keçirildiyi barədə Nəzarət Şurasının üzvləri, KİV təmsilçiləri məlumatlandırılıb. İmtahan sessiyasının mövcud qaydalara uyğun təşkili məqsədilə İnstitut rəhbərliyi tərəfindən xüsusi komissiyanın yaradıldığı, imtahanlara nəzarətin müəllim-koordinatorlar tərəfin-



imtahan sessiyasını müşahidə ediblər. Şura üzvləri və KİV təmsilçiləri tələbələrin sessiyaya hazırlıqları, sualların tərtibatı, imtahan prosesi barədə müəyyən söhbətlər aparıblar.

Şura üzvlərinə və KİV təmsilçilərinə imtahan prosesi barədə ətraflı məlumat verilib, media nümayəndələrini maraqlandıran sualları cavablandırılıb. Bildirilib ki, 2019-2020-ci tədris ilinin payız semestrinin qış sessiyası imtahanlarının müvafiq təlimatlara və əsasnamələrə uyğun keçirilməsini təmin etmək məqsədilə yarana biləcək mənfi halları dərhal araşdırmaq və müvafiq tədbirlər görmək, habelə sessiyanın şəffaf, normativ sənədlərə uyğun təşkili üçün Operativ Qərargah yaradılıb. Eyni zamanda, imtahanların bir qayda olaraq yazılı, zərurət yarandığı hallarda şifahi formada

dən həyata keçirildiyi qeyd edilib. İmtahanlar arasında 2 gündən az olmayan müddətin təyin edildiyi, ona ayrılan vaxtın



2 saat müəyyənləşdirildiyi barədə məlumat verilib.

Məlumat üçün bildiririk ki, sessiya ərzində tələbələrin biliyinin qiymətləndirilməsində obyektivliyin təmini, şəffaflığın qorunması məqsədilə ictimaiyyət nümayəndələrinin müşahidəçi qismində iştirakı üçün lazımi şərait yaradılıb. İmtahan otaqlarının qarşısında müraciət və təkliflər qutuları asılıb.

İctimai Nəzarət Şurasının əsas məqsədi Aİİ-nin fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi, universitet ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı əlaqələrin təşkili, aşkarlığın və şəffaflığın təmin olunması, əməkdaşların və təhsilalanların hüquqlarının müdafiəsi və fəaliyyətinin təkmilləşdirilməsi üçün təkliflərin verilməsindən ibarətdir.

Şuranın tərkibinə Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, İnsan Haqları Birgə Qrupun üzvü Əliməmməd Nuriyev; təhsil üzrə ekspert, professor Şahlar Əsgərov; təhsil üzrə ekspert Nadir İsrafilov; "Trend" İnformasiya Agentliyi Baş direktorunun korporativ inkişaf üzrə müavini Arzu Nağıyev; "İki sahil" qəzetinin Baş redaktoru Vüqar Rəhimzadə; İctimai Televiziya və Radio Yayımları Şirkətinin İctimai-Siyasi Proqramlar Departamentinin direktoru Anar Yusifoğlu; Modern.az saytının rəhbəri Elşad Eyvazlı; "525-ci qəzet"in müxbiri Sevinc Qarayeva daxildirlər.

# İnstitutun bir qrup tələbəsi Mərkəzi Elmi Kitabxananı ziyarət edib

Azərbaycan İlahiyyat İnstitutunun bir qrup tələbəsi 29 yanvar 2020-ci tarixdə Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasını (MEK) ziyarət edib.

Kitabxananın qeydiyyat bölməsindən ekskursiyaya başlayan tələbələr daha sonra ənənəvi və elektron kataloqla tanış olaraq burada kitab sifariş etməyi, sənədlərin elektron kataloqa daxil edilməsi prosesini izləyiblər. Ziyarətçilər sərgi salonunda müxtəlif mövzularda nümayiş edilən kitablarla tanış olublar.

Tələbələrə MEK-in tarixi, fəaliyyəti və məqsədi barədə geniş məlumat verilib. Qeyd olunub ki, Azərbaycanın qədim tarixinin və zəngin mədəniyyətinin, Azərbaycan Respublikasının müstəqillik illərində qazanılmış siyasi, iqtisadi, sosial və mədəni nailiyyətlərinin təbliğ edilməsi, Azərbaycan dilinin informasiya resurslarında istifadə imkanlarının genişləndirilməsi, müasir elmi araşdırmaların aparılması üçün informasiya təminatının yaxşılaşdırılması, milli-tarixi irsimizi təşkil edən və yeni yaranan bütün növ mövcud informasiya vahidlərinin toplanıb saxlanılması, dünya elmi, tarixi və mədəniyyətinin istifadəçilərinə təqdim olunması MEK-in əsas vəzifələrindəndir.

Ziyarət zamanı tələbələr, həmçinin MEK-in Diplomatik Fondunu, Nadir Kitab Fondunu, Dövri Mətbuat Fondunu, Oxu zallarını gəziblər.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu tələbələrin dünyagörüşünün, intellektual səviyyəsinin zənginləşdirilməsi, elmi tədqiqat işlərinin aparılmasına marağın artırılması, kitabxanalardan fəal istifadəni təmin etmək məqsədilə müxtəlif tədbirlər həyata keçirir.



-

Azərbaycan İlahiyyat İnstitutunu (AİI) bitirənlərin diplomları, artıq Türkiyə Respublikası Ali Təhsil Şurası (Yüksək Öyrətim Kurulu – YÖK) tərəfindən tanınır. Belə ki, bundan sonra İnstitutun tələbələri Türkiyədə asanlıqla magistratura və doktorantura pillələri üzrə təhsil ala biləcəklər.

Qeyd edək ki, ali təhsil müəssisəsi xarici ölkə universitetləri ilə təhsil və elm sahəsində qarşılıqlı münasibət, uzunmüddətli əməkdaşlıq, tədris prosesindəki təcrübələrlə əyani şəkildə tanış olmaq, bu sahə üzrə mövcud yeniliklərin öyrənilməsi, mədəni əlaqələrin qurulması və möhkəmləndirilməsi məqsədilə müxtəlif tədbirlər həyata keçirir. Bu səbəbdən, bir sıra ölkələrə səfərlər təşkil edilib, müxtəlif universitetlər ilə əməkdaşlıq müqavilələri imzalanıb.

İnstitut tələbələrin beynəlxalq mübadilə proqramları vasitəsilə Avropa, Amerika, Şərq ölkələrində təhsil almaları, eyni zamanda, yüksək göstəricilərlə məzun olan bakalavrların ixtisasları üzrə magistratura və doktorantura təhsilini dövlət xətti ilə xarici ölkələrdə davam etdirmələri üçün imkan yaradacaq.

# AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTUNUN «DİN, MƏDƏNİYYƏT VƏ CƏMİYYƏT-2» MÖVZUSUNDA TƏŞKİL ETDİYİ «QIŞ MƏKTƏBİ»

Azərbaycan İlahiyyat İnstitutu (Aİl) Qəbələ rayonunda 3-7 fevral 2020-ci il tarixlərində "Din, mədəniyyət və cəmiyyət-2" mövzusunda "Qış məktəbi" təşkil edib.

İnstitutun kollektivi əvvəlcə şəhərin mərkəzində ucaldılan ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzərək, dahi rəhbərin xatirəsini ehtiramla yad edib.

"Qış məktəbi"nin açılış mərasimində çıxış edən AİI-nin rektoru vəzifəsini müvəqqəti icra edən Aqil Şirinov tələbələrə uğurlar arzulayıb. Təşkil edilən proqramın tələbələr üçün böyük şans olduğunu nəzərə çatdıran A.Şirinov onlara bu imkandan maksimum yararlanmağı tövsiyə edib. O, Qəbələnin Nic kəndində təşkil edilən "Din, mədəniyyət və cəmiyyət-2" mövzusunda "Qış məktəbi"nin əhəmiyyətindən bəhs edərək, burada yaşayan udilərlə yaxından ünsiyyətin, eyni zamanda, bu tarixi məkanda mövcud olan qədim abidələrimizlə tanışlığın xüsusi səciyyə daşıdığını nəzərə çatdırıb.





Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov ölkəmizdə mövcud multikultural mühit barədə söhbət açıb. İnstitutun Qəbələdə təşkil etdiyi "Qış məktəbi"nin tələbələrin mövcud tolerant və multikultural mühitlə yaxından tanışlığı baxımından böyük əhəmiyyətə malik olduğunu qeyd edib. G.İsmayılov gənclərə bu imkanlardan maksimum yararlanmağı tövsiyə edib.

Alban-Udi Xristian İcmasının sədri Robert Mobili tələbələri Qəbələnin Nic kəndində görməkdən məmnunluğunu ifadə edib. O, qədim xalqlardan biri olan udinlər üçün multikultural ölkəmizdə yaradılan hərtərəfli şəraitdən bəhs edib. R.Mobili bildirib ki, Azərbaycan İlahiyyat İnstitutu istər İslam dini, istərsə də digər dünya dinlərini dərindən bilən, dövlətçiliyimizin keşiyində duran yüksəkixtisaslı dinşünas və islamşünas kadrlar hazırlayaraq təkcə ölkəmizdə deyil, bütün dünyada tanınan ali təhsil müəssisələrindən birinə çevriləcəkdir.

DQİDK-nin Şəki bölgəsi üzrə şöbə müdiri vəzifəsini icra edən Taleh Abdullayev bildirib ki, təşkil edilən "Qış məktəbi" ekskursiya və seminarların tələbələrin biliklərinin artırılmasında, dünyagörüşlərinin zənginləşdirilməsində xüsusi əhəmiyyətə malikdir.

"Din, mədəniyyət və cəmiyyət-2" mövzusunda təşkil edilən "Qış məktəbi"nin birinci günü seminar və ziyarətlərlə davam edib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov "Dövlət, cəmiyyət və din" mövzusunda çıxış edib. O bildirib ki, Azərbaycan xalqının əsrlər boyu mövcud olan tolerantlıq və multikulturalizm ənənəsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Sədr müavininin sözlərinə görə, Prezident İlham Əliyev hər zaman azərbaycançılıq ideologiyasının inkişafını və milli-mənəvi dəyərlərin qorunmasını diqqət mərkəzində saxlayır.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov daha sonra vurğulayıb ki, ibadətlə yanaşı, İslam dini birliyə və həmrəyliyə böyük önəm verir. Dinimizin əsas məqsədlərindən biri cəmiyyət,



dövlət və ailə üçün faydalı olan, bilikli, elmli, savadlı, nümunəvi vətəndaş formalaşdırmaqdır. G.İsmayılov qeyd edib ki, İslam dini meydana çıxdığı gündən elmə böyük dəyər verib, təhsil almağı ibadət səviyyəsinə qədər yüksəldib.

Sədr müavini çıxışı zamanı milli və dini dəyərlərimizin mahiyyətindən bəhs edib, bu dəyərlərin qorunmasının vacibliyinə toxunub. O vurğulayıb ki, yad dini ideologiyaların yayılması cəhdlərinin qarşısının alınması gənclər arasında milli-mənəvi, xüsusilə dini dəyərlərin təbliğinin doğru aparılmasından asılıdır.

Daha sonra tələbələr Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla həlak olmuş vətəndaşların xatirəsini əbədiləşdirmək məqsədilə Qəbələ şəhərində əsaslı təmir işləri aparılmış və yenidən qurulmuş Şəhidlər xiyabanını ziyarət ediblər. Şəhidlər xiyabanının ümumi ərazisi 2 500 kv.m sahəni əhatə edir. Kompleksin ərazisində 2 ədəd məzar, daxili qranit vurulmuş divarların üzərində isə 148 nəfər Azərbaycanın müstəqilliyi uğrunda canından keçmiş şəhidlərin fotoşəkilləri öz əksini tapıb.

Qəbələ Rayon Heydər Əliyev Mərkəzini ziyarət zamanı tələbələrə geniş məlumat verilib. Qeyd olunub ki, burada Ulu Öndərin həyatının müxtəlif anlarını əks etdirən 340-dan artıq eksponat cəmlənmişdir. Bunlar tarixi sənədlər, Ulu Öndərin həyat və fəaliyyəti haqqında kitablar və fotoşəkillərdən ibarətdir. Ümumilikdə, Mərkəzdə 550-dən artıq eksponat mövcuddur. Bildirilib ki, Heydər Əliyev Mərkəzinin rəsmi açılış mərasimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2 mart 2007-ci il tarixdə Qəbələ rayonuna səfəri zamanı baş tutub.

Mərkəzdə Bacarıqlı əllər dərnəyi, kompüter kursları, musiqi dərnəyi, rəsm studiyası və elektron kitabxananın fəaliyyət göstərildiyi diqqətə çatdırılıb.

**Azərbaycan İlahiyyat İnstitutunun Qəbələ rayonunda təşkil etdiyi “Din, mədəniyyət və cəmiyyət-2” mövzusunda “Qış məktəbi”nin növbəti günü**

“Qış məktəbi”nin ikinci günü tələbələr Qəbələ Rayon Mərkəzi Məscidini ziyarət ediblər. Məlumat verilib ki, burada eyni vaxtda 450 kişi, 150 qadın olmaqla, ümumilikdə, 600 mömin ibadət edə bilir. Məscidin divarlarına müqəddəs Qurani-Kərimdən surələr ya-





zılmış, sütunları isə Azərbaycan nəqqaşlıq məktəbinin və Şərq ornamentlərinin nadir nümunələrindən istifadə olunmaqla dini rəmzlərlə bəzədilib. Məscidin həyətində isə axund, dərs, kitabxana, mərasim, qadın və kişilər üçün dəstəmaz otaqları və digər köməkçi tikililər inşa olunub.

Tələbələr Soltannuxa Kənd Türbəsinə təşkil olunmuş ekskursiya zamanı ziyarətgah haqqında geniş məlumat əldə ediblər. Ziyarətçilərə məlumat verilib ki, türbənin, təxminən, 200 ilə yaxın tarixi var. Burada, təxminən, 179 il əvvəl "Şeşpər" adlı din xadiminin yaşadığı, onun İslam dininə böyük xidmətlər göstərsə də, əsər yazıb-yazmamasına dair məlumatın olmadığı diqqətə çatdırılıb.

Daha sonra tələbələr MİRAS Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi İdarə Heyətinin sədri Fariz Xəlillinin təqdimatında "Azərbaycanda xanəgahlar" mövzusunda məruzəni dinləyiblər. Azərbaycan ərazisində İslam arxeologiyasının ən qədim abidələrinin inşasının VIII əsrin sonu, IX əsrin əvvəllərindən başlandığını vurğulayan F.Xəlilli Azərbaycan arxeologiyasının müasir nailiyyətləri, həmçinin çağdaş dünya arxeologiyası barədə tələbələrin dərin biliklərə yiyələnməsinin vacib olduğunu tövsiyə edib. O, həmçinin qeyd edib ki, Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindən biri də maddi-mədəni irsimizin qorunmasıdır. F.Xəlilli Qəbələ ərazisində yerləşən abidələrimiz haqqında ətraflı məlumat verib.

**Azərbaycan İlahiyyat İnstitutunun təşkil etdiyi "Qış məktəbi"də tələbələr ölkəmizdə mövcud multikultural mühitlə yaxından tanış olur**

Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) Qəbələ rayonunda təşkil etdiyi "Din, mədəniyyət və cəmiyyət-2" mövzusunda "Qış məktəbi"nin üçüncü günü də ziyarət və seminarlarla davam edib.

Tələbələr Qəbələ Arxeoloji Mərkəzinin yerləşdiyi ərazidə olublar. Məlumat verilib ki, bu ərazidə 1926-cı ildən başlayaraq arxeoloji tədqiqatlar aparılmaqdadır. Arxeoloji mərkəz öz funksionallığına və tarixi dövrləri əks etdirməsinə görə üç əraziyə "Qala", "Səlbir" və "Çaqqallı" ərazilərinə bölündüyü bildirilib.

Tələbələr Qəbələ rayonunun Nic qəsəbəsində yerləşən "Cotari" Alban-Udi Kilsəsini də ziyarət ediblər. Burada tələbələrə məlumat verilib ki, dünyada yaşayan udilərin sayı on minə yaxındır. Altı mindən çox əhalisi olan Nic qəsəbəsində dörd mindən artıq udi yaşayır. Qəsəbədə udilər öz dillərini, dinlərini, adət-ənənələrini 2500 ildir qoruyub saxlayırlar. Bütün bunlarla yanaşı qəsəbədə ibtidai sinif şagirdləri üçün udi dili tədris olunur.

Daha sonra tələbələr Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayevin təqdimatında "Azərbaycanda yəhudi icmasının dünəni və bu günü" mövzusunda məruzəni dinləyiblər. Azərbaycanda yəhudiliyin tarixi və bugünü haqqında məlumat verib. O, yəhudiliyin Azərbaycandakı tarixinin 2000 ildən çox olduğunu, təmsil etdiyi dağ yəhudilərinin Avropa yəhudilərinə nisbətən daha çox şərq xalqlarına bənzədiklərini vurğulayıb. O, dağ yəhudilərinin təqribən 300 ilə yaxındır ki, Qubada məskunlaşdıqlarını, bu rayonda yerləşən "Qırmızı qəsəbənin" onların kompakt şəkildə yaşadıqları ən böyük yaşayış məskəni olduğunu qeyd edib. M.Yevdayev ölkə yəhudilərinin Azərbaycan xalqı ilə əsrlər boyu dostluq və qardaşlıq şəraitində yaşadıqlarını və heç vaxt diskriminasiyaya məruz qalmadıqlarını xüsusilə vurğulayaraq, Azərbaycanın antisemitizmin olmadığı

nadir dövlətlərdən biri olduğunu, dövlətin yəhudi icmalarına xüsusi qayğı göstərdiyini, maliyyə yardımı ayırdığını, sinaqoqları bərpa və təmir etdiyini bildirib.

Alban-Udi Xristian İcmasının sədr müavini Rafik Danakari Albaniyada xristianlığın meydana gəlməsi, Alban kilsəsinin təşəkkül tarixi, kilsənin son mərhələsi, onun ləğvi və ya məhv edilməsi məsələlərinə toxunaraq bəzi mübahisəli mövzulara aydınlıq gətirib. Qeyd olunub ki, minillik Albaniya dövləti Azərbaycanın dövlətçilik tarixində dərin iz buraxıb, onun yaratdığı irs sonrakı Azərbaycan dövlətlərinin həyatında davam etdirilib. 2018-ci il mart ayının 11-də Alban kilsəsinin ləğv edilməsinin 182 ilinin tamam olduğunu deyən R.Mobili bildirib ki, erməni və ermənipərəst tarixçilər mövzunu erməni-qriqoryan kilsəsinin konsepsiyasna uyğunlaşdırıb və tarixi reallığı təhrif edib. Qeyd olunub ki, tarixi məlumatlar Alban kilsəsinin təkcə



Qafqazda deyil, bütün Şərq xristian dünyasında ən qədim kilsələrdən biri olmaqla, apostol mənşəli olduğunu göstərir. 1836-cı ilə qədər iqamətgahı Gəncəsərdə yerləşən, müstəqil şəkildə mitropoliya statusunda mövcud olan Alban katalikosluğu həmin il martın 11-də Rusiya çarı I Nikolayın "Erməni-qriqoryan kilsəsi haqqında reskripti" ilə ləğv edilib, katalikosat xəttinə və vəzifə təyinatına son qoyulub. Bütün bunların bədniyyətli qonşularımızın 2 əsr ərzində bizə qarşı yürütdükləri tarixi saxtalaşdırma siyasətinin tərkib hissəsi olduğunu söyləyən məruzəçi qeyd edib ki, erməni kilsəsi, nəinki, Alban kilsəsinin məbədlərini, dəftərxanasını, həmçinin əsrlərlə orada saxlanılan bütün əlyazmaları, qədim Alban abidələrini, Qüds şəhərində



yerləşən məbədi və kilsəyə məxsus olan iqamətgahı mənimsəyib.

Aİİ-nin Qəbələdə "Din, mədəniyyət və cəmiyyət-2" mövzusunda təşkil etdiyi "Qış məktəbi" 7 fevral 2020-ci il tarixdə başa çatıb.

"Qış məktəbi"nin sonuncu günü bağlanış mərasimi keçirilib. Mərasimdə çıxış edən Aİİ-nin rektoru vəzifəsini müvəqqəti icra edən Aqil Şirinov tələbələrə uğurlar arzulayıb. Təşkil edilən proqramın tələbələr üçün böyük şans olduğunu nəzərə çatdıran A.Şirinov onlara ilahiyyat sahəsində biliklərini zənginləşdirməyi, bu imkanlardan maksimum yararlanmağı tövsiyə edib. Cəmiyyətimizi xurafatdan, mövhumatdan uzaq, saf, düzgün dini biliklərlə maarifləndirməyin əhəmiyyətinə toxunan Aqil Şirinov tələbələri milli-mənəvi dəyərlərimizin ictimaiyyətə düzgün çatdırılması



işində fəal olmağa çağırıb.

Daha sonra A.Şirinov Qəbələnin Nic qəsəbəsində təşkil edilən "Din, mədəniyyət və cəmiyyət-2" mövzusunda "Qış məktəbi"nin əhəmiyyətinə toxunub, burada yaşayan udilərlə yaxından ünsiyyətin, eyni zamanda, bu tarixi məkanda mövcud olan qədim abidələrimizlə tanışlığın xüsusi səciyyə daşıdığını qeyd edib.

"Qış məktəbi" iştirakçıların mükafatlandırılması və sertifikatların təqdim olunması mərasimi ilə yekunlaşıb.

Qeyd edək ki, layihə çərçivəsində tələbələr üçün müxtəlif seminar və ziyarətlər, film nümayişləri, əyləncəli oyunlar təşkil edilib.

"Qış məktəbi" layihəsinin həyata keçirilməsində əsas məqsəd tələbələrdə vətənpərvərlik ruhunun gücləndirilməsi, onların intellektual səviyyəsinin, dünyagörüşünün zənginləşdirilməsi və layiqli vətəndaş olaraq yetişməsinə töhfə vermək, eyni zamanda onların ölkəmizdə mövcud multikultural, tolerant mühitin canlı şahidi olmalarıdır.

# İnstitutun tələbələri Əlyazmalar İnstitutunda olublar

Azərbaycan İlahiyyat İnstitutunun bir qrup tələbəsi 31 yanvar 2020-ci il tarixdə Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunu ziyarət edib.

Tələbələr burada Yaxın və Orta Şərq, Şimali Afrika xalqlarının elm və mədəniyyətinə aid türk, ərəb, fars dillərində qiymətli əsərlərlə, eyni zamanda, XIX-XX əsrlərdə yaşamış görkəmli elm və mədəniyyət xadimlərinin şəxsi sənədləri, əvvəlki dövrlərin qəzet və jurnalları, müxtəlif mikrofilm və fotosurətlərlə tanış olublar.

İnstitutda qorunan qədim əlyazmalarla tanışlıq zamanı tələbələrə 1982-ci ildən fəaliyyət göstərən Ekspozisiya zalında Nur Əlişah İsfahani, Nəxşəvi Ziyaəddin, İbrahim Həqqi, Əbu Cəfər ibn Məhəmməd Təbəri, Məhəmməd Füzuli, Seyid Məhəmməd Ürfi Şirazi, Bəvazici, Əhməd Nədim, Əbdürrəhman Cami, Ömər Xəyyam Nişapuri, Əmir Xosrov Dəhləvi, Hafiz Şirazi, Saib Təbrizi, Əssar Təbrizi, Nəsirəddin Tusi, Məhsəti Gəncəvi, Əlişir Nəvai, Mirxond Məhəmməd ibn Xavəndşah, Seyid Əzim Şirvani, Abbasqulu ağa Bakıxanov, eləcə də digər görkəmli elm və mədəniyyət xadimlərinə aid əsərlərin əlyazma nüsxələri haqqında geniş məlumat verilib.



Tələbələr Əlyazmalar İnstitutunda mühafizə olunan əlyazmaların saxlanma şəraiti və bərpası prosesi ilə maraqlanıb, bərpa laboratoriyasında əməkdaşların iş təcrübəsi ilə də tanış olublar.

Tələbələr, eyni zamanda, XVI əsrin əvvəllərində Təbrizdə, əsrin ikinci yarısında isə Qəzvində saray kitablarının bədii emalatxanalarında çalışan dövrünün ən görkəmli xəttat və rəssamları olan Sultan Məhəmməd, Mir Müsəvvir, Mirzə Əli Təbrizi, Mir Seyid Əli, Müzəffər Əli, Məhəmmədi, Sadiq bəy Əfşar, Siyavuş bəy, Mir Zeynalabdin və başqalarının fəaliyyət göstərməsi barədə ərtaflı məlumat alıblar.



Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu tələbələrin dünyagörüşünün, intellektual səviyyəsinin zənginləşdirilməsi, elmi tədqiqat işlərinin aparılmasına marağın artırılması, kitabxanalardan fəal istifadəni təmin etmək məqsədilə müxtəlif tədbirlər həyata keçirir.

# Azərbaycan İlahiyyat İnstitutunun ikiillik fəaliyyəti ilə bağlı tədbir təşkil olunub

12 fevral 2020-ci il tarixdə Azərbaycan İlahiyyat İnstitutunun (AİI) təsis edilməsinin 2-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.

AİI-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov tədbir iştirakçılarını salamlayaraq, İnstitutun Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamına əsasən Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində təsis edildiyini vurğulayıb. İnstitutun yaradılmasında məqsədin Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasını təmin etmək olduğunu bildirib.

Azərbaycanda nümunəvi dövlət-din münasibətləri haqqında bəhs edən C.Məmmədov ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan bu siyasətin hazırda onun layiqli varisi Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, Birinci vitse-prezident xanım Mehriban Əliyeva və onun rəhbəri olduğu Heydər Əliyev Fondunun bu sahəyə xüsusi diqqət və qayğı göstərdiyini vurğulayıb.

AİI rəhbəri daha sonra vurğulayıb ki, İnstitutun yaradılması dövlət-din münasibətlərinə, milli-mənəvi dəyərlərə qayğının ən böyük göstəricilərindən biridir.

C.Məmmədov ötən iki il ərzində İnstitutun gördüyü işlər, ali təhsil müəssisəsinin həyata keçirdiyi fəaliyyət istiqamətləri, həmçinin hədəfləri haqqında da məlumat verib.

Rektor qeyd edib ki, Azərbaycan İlahiyyat İnstitutu qarşısına bir sıra məqsəd və hədəflər qoyub.



Müasir dövrümüzün tələblərinə cavab verən, zəngin dünyagörüşünə, dərin dini və dünyəvi biliklərə, güclü şəxsiyyətə malik mütəxəssislərin yetişdirilməsi ümdə vəzifələrdəndir: “Belə mütəxəssislər yetişdirmək üçün bir çox layihə həyata keçirir, diskussiyalar, yarışlar, konfranslar, təlimlər təşkil edirik. İşimizdə dünya və qonşu ölkələrin təcrübələrindən bəhrələnirik. İstəyirik ki, tələbələrimiz – gələcəyin ilahiyyatçıları dərin elmə, yüksək intellektə, zəngin dünyagörüşünə malik peşəkar mütəxəssislər olsun”.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev Şeyxülislam Allahşükür Paşazadənin AİI heyətinə xeyir-dualarını çatdırıb. O, İlahiyyat İnstitutunun yaradılmasını ölkəmiz üçün əhəmiyyətli hadisə kimi qiymətləndirib. F.Nurullayev, xüsusilə son illərdə dünyada gedən gərgin siyasi proseslərin fonunda bu qərarın doğru və yerində olduğunu vurğulayıb. Hazırda dini təhsil almış insanlara ehiyac olduğunu qeyd edən F.Nurullayev İnstitutun Azərbaycanın dini həyatında xidmətləri olacaq layiqli məzunlar yetişdirəcəyini vurğulayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov istər İslam dini, istərsə də digər dünya dinlərini dərindən bilən, dövlətçiliyin keşiyində duran yüksəkixtisaslı dinşünas və islamşünas kadrların hazırlanması baxımından AİI-nin fəaliyyətini yüksək qiymətləndirib. Cəmiyyətdə İnstitutun yetəri qədər tanıdığını və müsbət fikirlərin olduğunu bildirib. Regionda dini təhsil verən kifayət qədər müəssisələrin olduğunu vurğulayan sədr müavini Azərbaycan İlahiyyat İnstitutunun bu rəqabət mühitində öz sözünü layiqincə deyəcəyinə ümidvar olduğunu bildirib.

Sədr müavini bildirib ki, Azərbaycanda dini etiqad azadlığı, əsrlərdən bəri xalq arasında mövcud olan dini dözümlülük və multikulturalizm ənənəsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu baxımdan, Azərbaycan İlahiyyat İnstitutunun yaradılması Prezident İlham Əliyevin azərbaycançılıq ideologiyasının inkişafını və milli-mənəvi dəyərlərin qorunmasını daim diqqət mərkəzində saxladığının bariz göstəricisidir.

# BİNƏQƏDİ RAYONUNDA ABİTURİYENTLƏRLƏ GÖRÜŞ KEÇİRİLİB



Azərbaycan İlahiyyat İnstitutu (AİI) 2020/2021-ci tədris ili üzrə İnstituta yüksəkintellektli və savadlı gənclərin cəlb olunması məqsədilə respublikanın bir sıra bölgələrində yerləşən orta məktəblərin yuxarı sinif şagirdləri üçün ənənəvi maarifləndirici xarakterli məlumatlandırma tədbirlərini davam etdirir. İnstitut növbəti tədbirini 14 fevral 2020-ci il tarixdə Binəqədi rayonunda keçirib.

Binəqədi Rayon İcra Hakimiyyəti başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Şəmsi Gülverdiyev çıxışında milli-mənəvi dəyərləri qoruyub saxlamağın hər bir vətəndaşın, xüsusilə də gənclərin üzərinə düşən vəzifə olduğunu vurğulayıb. Ş.Gülverdiyev ölkədəki mövcud ictimai-siyasi sabitlik, onun dəyərləri və bu istiqamətdə görülmüş işlər barədə danışıb. Qeyd edib ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə təhsil sisteminin inkişafı ilə bağlı aparılan islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir.

AİI İlahiyyat fakültəsinin dekanı, fəlsəfə üzrə fəlsəfə doktoru Mirniyaz Mürsəlov ulu öndər Heydər Əliyevin strateji kursunun layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyevin təhsil sahəsində apardığı islahatlar haqqında bəhs edib. O qeyd edib ki, bu istiqamətdə atılan addımlar Azərbaycan xalqının xoş gələcəyinə xidmət göstərəcək səviyyədə uğurla davam etdirilir. Bu sahədə görülən genişmiqyaslı işlər ölkəmizdə savadlı, istedadlı gənc nəslin yetişməsinə, təhsilin böyük nailiyyətlər əldə etməsinə gətirib çıxarır.

M.Mürsəlov ali tədris müəssisəsində keçilən fənlər, ixtisaslar haqqında da məlumat verib. İnstituta qəbul olunacaq abituriyentlərin bütün dinlər haqqında dərin biliklərə sahib olacaqlarını nəzərə çatdırıb. Qeyd edib ki, ali təhsil müəssisəsində dərslər ingilis və ərəb dillərində sərbəst şəkildə mühazirə oxuya bilən, öz sahəsində dərin biliyə malik alimlər tərəfindən aparılır.

Görüşün sonunda abituriyentləri maraqlandıran suallar cavablandırılıb.



# Fələstinin ölkəmizdəki Fövqəladə və Səlahiyyətli Səfiri ilə görüş keçirilib




Azərbaycan İlahiyyat İnstitutunda (Aİİ) 19 fevral 2020-ci il tarixdə Fələstinin ölkəmizdəki Fövqəladə və Səlahiyyətli Səfiri cənab Nasir Əbdülkərim Əbdürrəhman ilə görüş keçirilib.

Aİİ-nin rektoru Ceyhun Məmmədov cənab Nasir Əbdülkərim Əbdürrəhmanı və görüş iştirakçılarını salamlayaraq, Fələstin ilə Azərbaycan arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edib. Rektor Azərbaycanda əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlətdin siyasətindən bəhs edib. Bu istiqaməti hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın uğurla davam etdirdiyini vurğulayıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müsəlman ölkələri ilə əməkdaşlığa böyük önəm verdiyini bildirən rektor ölkəmizdə İslam həmrəyliyinə, multikulturalizmə, milli-mənəvi dəyərlərin qorunmasına xüsusi əhəmiyyət verildiyini nəzərə çatdırıb. Aİİ-nin fəaliyyət istiqamətləri, hədəfləri haqqında bəhs edən C.Məmmədov İnstitutun xarici təhsil müəssisələri ilə əməkdaşlıqda maraqlı olduğunu söyləyib.



Sonra Fələstinin ölkəmizdəki Fövqəladə və Səlahiyyətli Səfiri cənab Nasir Əbdülkərim Əbdürrəhman çıxış edib. Azərbaycanın dünyanın sürətlə inkişaf edən ölkələrindən biri olduğunu, nəhəng layihələrə imza atdığını, paytaxtla yanaşı, regionların da gündən-günə inkişaf etdiyini vurğulayan səfir müsəlman ölkəsi olaraq bundan məmnunluğunu ifadə edib.

Səfir Nasir Əbdülkərim Əbdürrəhman Fələstinlə Azərbaycan arasındakı əlaqələrin keçmişə söykəndiyini, 2011-ci ildə Fələstinin Azərbaycanda Səfirliyinin açılması ilə bu əlaqələrin daha da möhkəmləndiyini vurğulayıb.



Görüş zamanı səfir Fələstin probleminin qısa tarixinə və Yaxın Şərqdə sülhün perspektivlərinə toxunub. Ölkənin qədim və indiki dövründən bəhs edən Nasir Əbdülkərim Əbdürrəhman Fələstin probleminin tarixi, bir sıra aspektləri və müasir durumu haqqında ətraflı məlumat verib, bu problemə bir sıra beynəlxalq təşkilatların və aparıcı dövlətlərin münasibətindən söhbət açıb.

Tədbirin sonunda müzakirələr aparılıb, tədbir iştirakçılarının sualları cavablandırılıb.

# Azərbaycan İlahiyyat İnstitutu beynəlxalq əlaqələrini genişləndirir



Azərbaycan İlahiyyat İnstitutu (Aİİ) Türkiyənin "29 Mayıs" Universiteti ilə əməkdaşlıq əlaqələrini genişləndirir.

Aİİ-nin Elm və innovasiyalar üzrə prorektoru Aqil Şirinov 20 fevral 2020-ci il tarixdə "29 Mayıs" Universitetinin rektoru Mustafa Sinanoğlu ilə görüşüb.

Görüşdə Azərbaycan İlahiyyat İnstitutu ilə "29 Mayıs" Universiteti arasında əməkdaşlıq perspektivləri müzakirə olunub. Hər iki ali təhsil müəssisəsinin fakültə və kafedraları arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan elmi-tədqiqat işlərinin aparılması, birgə layihələrin reallaşdırılması, professor-müəllim heyəti və doktorantlar üçün qarşılıqlı akademik səfərlərin həyata keçirilməsi məqsədəuyğun hesab edilib.

Görüşdə alim və mütəxəssislərin iştirakı ilə konfransların keçirilməsi, pedaqoji heyətin tələbələrlə qarşılıqlı münasibətlər qurması, seminarların təşkili haqqında müzakirələr aparılıb. Elmi məlumatların ötürülməsi, təcrübə və araşdırma, tədris prosesinin təşkili ilə bağlı bilikərin bölüşdürülməsi, ali təhsil müəssisələrinin tələbə mübadiləsi və digər məsələlər müzakirə olunub.

Qeyd edək ki, Aİİ xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlığa xüsusi önəm verir. Ali təhsil müəssisəsinin hədəfi tədrisin müasir tələblər səviyyəsində qurulması məqsədilə dünyanın digər qabaqcıl universitetləri ilə yanaşı, Türkiyə ali məktəblərinin təcrübəsindən yararlanmaq, tələbə mübadiləsi aparmaq, həmçinin ali məktəblər arasında əlaqələrin genişləndirilməsidir.

## Azərbaycan İlahiyyat İnstitutu abituriyentlərlə görüşlərini davam etdirir

## Növbəti görüş Bakı şəhəri Qaradağ rayonunda olub

Azərbaycan İlahiyyat İnstitutu (Aİİ) 2020/2021-ci tədris ili üzrə İnstituta yüksəkintellektli və savadlı gənclərin cəlb olunması məqsədilə respublikanın bir sıra bölgələrində yerləşən orta məktəblərin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirlərini davam etdirir. Ali təhsil müəssisəsinin növbəti görüşü 21 fevral 2020-ci il tarixdə  Bakı şəhərinin Qaradağ rayonunda olub.

Tədbiri giriş sözü ilə açan Bakı şəhəri Qaradağ Rayon Faiq Rəfiyev adına 166 nömrəli məktəb-liseyin direktoru Şəmsi Qocayev qonaqları salamlayaraq bildirib ki, hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə təhsilə qayğı  yüksək səviyyədədir. Bu sahədə həyata keçirilən islahatlar, ilk növbədə, Azərbaycanın xoşbəxt və firavan gələcəyinə hesablanmışdır.

Aİİ İlahiyyat fakültəsinin dekanı Mirniyaz Mürsəlov tələbələrin daha yaxşı təhsil almaları üçün İnstitutda yaradılan şəraitdən bəhs edib. Tədris prosesi, keçirilən fənlər haqqında məlumat verib. O qeyd edib ki, İnstitut kollektivi gənclərin zəngin dünyagörüşlü, dərin dini və dünyəvi biliklərə yiyələnən bacarıqlı kadr kimi yetişmələri istiqamətində səylə çalışır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Bakı şəhəri üzrə şöbəsinin müdiri vəzifəsini icra edən Anar Kazımov gəncləri öz təsir dairəsinə salmağa cəhd edən, milli-mənəvi dəyərlərimizə zərbə vurmağa çalışan qeyri-ənənəvi radikal dini cərəyanlarla mübarizədə təhsilin, maarifçiliyin əhəmiyyətini vurğulayıb.

Daha sonra Qaradağ Rayon İcra Hakimiyyəti başçısının müavini İsmayılova Təranə çıxış edərək bildirib ki, ölkəmizdə əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş və hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyi milli təhsil quruculuğu və islahatları öz töhfələrini verməkdədir.

Görüşün sonunda abituriyentləri maraqlandıran suallar cavablandırılıb.

# İstanbul şəhərində Xocalı soyqırımı ilə bağlı silsilə tədbirlər keçirilir




Azərbaycan İlahiyyat İnstitutu (Aİİ) Türkiyənin İstanbul şəhərində Xocalı soyqırımı ilə bağlı silsilə tədbirlər keçirir. Növbəti tədbir 20 fevral 2020-ci il tarixdə "Okçular vakfı"nda təşkil olunub.

Öncə Xocalı soyqırımına həsr olunmuş fotosərginin nümayişi keçirilib.

Tədbirdə Xocalı soyqırımı qurbanlarının xatirəsi birdəqiqəlik sükutla yad edilib, Azərbaycan və Türkiyə respublikalarının dövlət himnləri səsləndirilib.

Tədbirdə giriş nitqi ilə çıxış edən Bəyoğlu Bələdiyyəsinin sədri Haydar Ali Yıldız Xocalı soyqırımının Türkiyədə böyük üzüntü, ümumxalq hüzn, yaddaşlardan silinməyən faciə kimi qəbul edildiyini diqqətə çatdırıb. Qeyd edib ki, bu dərd bundan sonra da unudulmayan acı kimi insanlarımızın qəlbində yaşayacaq.

Beyoğlu icra başçısı Mustafa Demirelli keçmişi dəqiq şəkildə təhlil edib gənclərimizin məlumatlandırılmasının vacibliyini vurğulayıb. Bütün dünya xalqlarını bu hadisəyə, ümumilikdə, terrorizmə, erməni vandalizminə qarşı səsini ucaltmağa çağırıb.

Azərbaycanın İstanbuldakı Baş Konsulu Məsim Hacıyev tarixi hadisələrin xronologiyasına nəzər salıb: "1905-ci ildə Qarabağda, 1918-də Bakıda və 1992-ci ildə Xocalıda Azərbaycan türklərinə qarşı həyata keçirilən soyqırımlarını bir-birindən ayırmaq olmaz; hamısı erməni separatçı terrorçularının eyni məqsəd üçün həyata keçirdikləri cinayətlərdir. Birinci Dünya müharibəsində üç cəbhədə müharibə aparan Osmanlı imperiyasını arxadan xəncərləyərək cinayətlər törətmiş ermənilər həmin əməllərini daha sonra Azərbaycan torpaqlarında davam etdiriblər". Ermənilərin törətdiyi Xocalı soyqırımının təfərrüatları barədə məlumat verən Baş Konsul M.Hacıyev daha sonra bu faciəni daim gündəmdə saxlayan Türkiyəyə təşəkkür edib.



Türk Ocaqları İstanbul Şöbəsinin müdiri Cezmi Bayram tarix boyu ermənilərin türk millətinə və Azərbaycan torpaqlarında dinc əhaliyə qarşı törətdikləri ardıcıl və düşünülmüş soyqırımı siyasəti, həmçinin Xocalı faciəsi haqqında bəhs edib. Cezmi Bayram bu qanlı hadisənin dünya miqyasında tanıdılması istiqamətində tələbələrin və sosial medianın rolunun vacibliyini vurğulayıb.

Aİİ-nin Elm və innovasiyalar üzrə prorektoru Aqil Şirinov erməni vəhşiliklərini tarixi nöqteyi-nəzərdən təhlil edib. O, Xocalıda baş vermiş soyqırımı faktlarını, insanların hansı amansızlıqlarla – qadın, qoca, uşaq demədən – qətlə yetirildiyini bildirib. A.Şirinov, həmçinin XX əsrin əvvəllərində ermənilər və onların havadarları tərəfindən Azərbaycan türklərinə qarşı törədilmiş 31 Mart hadisələrini, soyqırımı nəticəsində dinc əhalinin amansızlıqla qətlə yetirilməsini, yüzlərlə kəndi, yaşayış yerlərini dağıdıb viran qoymalarını diqqətə çatdırıb. Qeyd edib ki, tarix boyu ermənilər türk-müsəlman əhalisinə qarşı düşmən münasibətində olublar.

Erməni Təcavüzünün Tanıdılması İctimai Birliyinin sədri, Qarabağ veteranı jurnalist Səriyyə Cəfərova tədbirdə çıxış edərək, Xocalıda qətlə yetirilmiş 63 uşaqdan bəhs edən, 4 dildə nəşr olunan "Onlar heç vaxt böyüməyəcəklər" kitabı haqqında bəhs edib. S.Cəfərova soyqırımı haqqında olan rəsmi və gizlədilmiş faktlar, öldürülən insan sayı haqqında məlumat verib. Şahidlərin, o hadisələrdən sağ çıxmış insanların, əsir düşüb, daha sonra əsirlikdən xilas olmuş insanların həmin hadisələr barədə söylədikləri tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Tədbirdə "Xocalı zülmət bir gecə" sənədli filminin də nümayişi olub. Filmdə Xocalı soyqırımının canlı şahidləri həmin gündən danışırlar.

# Azərbaycan İlahiyyat İnstitutunda Xocalı soyqırımı anılıb

Azərbaycan İlahiyyat İnstitutunda (AİI) 20 fevral 2020-ci il tarixdə Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə “Xocalı: milli tariximizin şəhidlik səhifəsi” mövzusunda tədbir keçirilib.

Əvvəlcə Xocalı şəhidlərinin əziz xatirəsi birdəqiqəlik ehtiram sükutu ilə anılıb.

AİI rektoru Ceyhun Məmmədov mərasim iştirakçılarını salamlayaraq, gənclərdə vətənpərvərlik ruhunun aşılanması istiqamətində ali təhsil müəssisəsinin müxtəlif tədbirlər həyata keçirdiyini diqqətə çatdırıb.






İnstitut rəhbəri daha sonra bildirib ki, insanlığa qarşı öz vəhşiliyinə və qəddarlığına görə ən dəhşətli kütləvi terror hadisələrindən biri kimi tarixə düşmüş Xocalı soyqırımının törədilməsindən iyirmi səkkiz il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Dağlıq Qarabağda erməni quldur birləşmələri keçmiş sovet ordusuna məxsus 366-cı alayın əsgər və zabitləri ilə birlikdə 7 min nəfərədək əhalisi olan Xocalı şəhərini yerlə-yeksan edib, dinc əhalini, xüsusilə uşaqları, qadınları, qocaları ağlasığmaz vəhşiliklə öldürüblər.

Rektor həlak olmuş şəhid ailələrinin və əlil düşmüş insanların daim Azərbaycan Dövlətinin qayğı və diqqəti ilə əhatə olunduqlarını, onların yaşayış səviyyəsinin yaxşılaşdırılması, sosial problemlərinin həlli istiqamətində mühüm tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb.

AİI-nin Dillər və ictimai fənlər kafedrasının müdiri dosent İlkin Əlimuradov çıxış edərək bildirib ki, hədəfimiz Xocalı soyqırımı həqiqətlərini bir daha dünya ictimaiyyətinə çatdırmaqdır. Qeyd edib ki, bu səpkili tədbirlər, anım mərasimləri Azərbaycan xalqının sıx birliyini, şəhidlərimizin xatirəsinə ehtiramını, ölkəmizin ərazi bütövlüyünün bərpası üçün əzmini nümayiş etdirir.

AİI-nin müəllimi fəlsəfə üzrə fəlsəfə doktoru Vüqar Səmədov “İslamda şəhidlik ” mövzusunda çıxış edib. İslam dinində şəhidlik məqamı, Vətən sevgisi və onu qorumağın vacibliyi haqqında söhbət açıb. O bildirib ki, Vətəni müdafiə etmək üçün düşmənə qarşı mübarizə apararaq şəhid olmaq bir müsəlmanın nail ola biləcəyi ən yüksək mənəvi mərtəbədir.

Daha sonra AİI-nin müəllimi tarix üzrə fəlsəfə doktoru Rəşad Mustafa “Xocalı faciəsinə tarixi baxış” mövzusunda çıxış edib. Bildirib ki, ötən əsrin 80-ci illərinin sonlarından məkrli erməni cəlladları tarixi torpaqlarımız hesabına “Böyük Ermənistan” yaratmaq məqsədilə zaman-zaman azərbaycanlılara qarşı qanlı cinayətlər törətmiş, soydaşlarımızı qətlə yetirmiş, repressiya və deportasiyaya məruz qoymuşlar. Ermənilər etnik təmizləmə apararaq, ərazilərimizin bir hissəsini işğal etmişlər. Nəticədə xalqımız dəfələrlə ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır.

R.Mustafa Azərbaycan xalqına qarşı işğalçılıq və soyqırımı siyasətinin davamı olan Xocalı faciəsinin tarixi faktlarını xatırladıb. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni cəlladlarının Xocalıya hücumu zamanı azərbaycanlılar xüsusi qəddarlıqla qətlə yetirilib. Qətlə yetirilənlər arasında yaşlı, qadın və uşaqlar da olub. Mülki əhali itkin düşüb, əsir götürülüb, ailələr məhv edilib.

Tədbirdə XX əsrin facisəi olan Xocalı soyqırımından bəhs edən film nümayiş olunub.

# Azərbaycan İlahiyyat İnstitutu "Azərbaycan Universitetləri Sərgisi-2020"də iştirak edib

Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) əməkdaşları 24 fevral 2020-ci il tarixdə "Azərbaycan Universitetləri Sərgisi-2020"də iştirak ediblər.

Aİİ heyəti tərəfindən sərgi iştirakçılarına ali təhsil müəssisəsinin fəaliyyəti, qəbul prosesinin təşkili, mövcud ixtisaslar, təqaüd proqramları, ödənişsiz təhsil imkanları, beynəlxalq əlaqələr, xarici universitetlərlə bağlanmış müqavilələr, İnstitutda keçirilən tədbirlər, konfranslar, həmçinin əldə olunan nailiyyətlər haqqında geniş məlumat verilib. Qeyd olunub ki, İnstituta qəbul olunmuş hər bir abituriyent dövlətin qayğı və diqqəti ilə yaradılmış lazımi şəraitdən, ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacaq. Həmçinin tələbələrin ödənişsiz geyim və dərsliklərlə təmin ediləcəkləri, dərslərdən əlavə, ayrıca xarici dil kurslarına cəlb olunacaqları və digər üstünlüklərə yiyələnəcəkləri nəzərə çatdırılıb.



Sərgidə, eyni zamanda, ali təhsil müəssisəsinin fəaliyyətini əks etdirən Azərbaycan, ingilis, rus və ərəb dillərində broşür, buklet və kataloqlar, "Din araşdırmaları" jurnalı, "İlahiyyatçı" qəzeti, "İlahiyyat" jurnalı, konfrans materialları və "İlahiyyat nəşrləri" adı altında layihəyə əsasən çap olunan ali təhsil müəssisəsi müəllimlərinin kitabları nümayiş etdirilib.

Qeyd edək ki, sərginin keçirilməsində əsas məqsəd burada iştirak edəcək hər bir abituriyentin seçiminə uyğun olaraq təhsil ocaqları ilə yaxından tanışlığına yardım göstərmək; ali təhsil müəssisəsi seçimində kömək olmaq; gənclərin həmin ali təhsil müəssisələrinin nümayəndələri ilə birbaşa ünsiyyətdə olub, onları maraqlandıran bütün suallarına dəqiq cavab tapmasına dəstək nümayiş etdirməkdir.

## Aİİ-də ilk dərslər Xocalı soyqırımına həsr olunub

Azərbaycan İlahiyyat İnstitutunda (Aİİ) Təhsil Nazirliyinin "Xocalı soyqırımının 28-ci ildönümünün keçirilməsi ilə əlaqədar tədbirlər planı"na əsasən bu gün – 26 fevral 2020-ci il tarixdə ilk dərslər Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunub.

Müəllimlər 28 il bundan əvvəl Xocalı sakinlərinə qarşı erməni silahlı birləşmələrinin və sovet ordusunun 366-cı motoatıcı alayının iştirakı ilə törədilən faciənin dəhşətlərindən söz açıblar. Xocalı soyqırımı ilə bağlı fikirlərini tələbələrlə bölüşən müəllimlər şəhid olmuş günahsız insanların həmişə ehtiramla yad ediləcəklərini diqqətə çatdırıblar.

Dərslərdə Xocalı soyqırımı haqqında həqiqətləri çatdırmaq məqsədilə müxtəlif fotoşəkillər, məlumatlar, faciəni özündə əks etdirən sənədli filmlər nümayiş olunub.

Azərbaycan İlahiyyat İnstitutu tələbələrin milli-mənəvi köklərimizə bağlı, dövlətçiliyimizi qoruyub saxlayan, Vətənini sevən, onun yolunda canından keçməyə hazır, vətənpərvər, mərd, cəsur, cəmiyyətə yararlı vətəndaşlar kimi formalaşması üçün qəhrəmanlıq tariximiz haqqında bədii və sənədli filmlərin nümayişini, müharibə iştirakçıları ilə görüşlərin və ölkəmizin müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş Vətən övladlarının yad edilməsi məqsədilə müxtəlif seminarların və "dəyirmi-masa"ların təşkilini həyata keçirir. Bu istiqamətdə Azərbaycan İlahiyyat İnstitutu Xocalı soyqırımının 28-ci ildönümü ilə bağlı silsilə tədbirlər keçirir. Belə ki, ali təhsil müəssisəsi Türkiyənin İstanbul şəhərində Xocalıda qətlə yetirilmiş 63 uşaqdan bəhs edən, 4 dildə nəşr olunan "Onlar heç vaxt böyüməyəcəklər" kitabının təqdimatını və faciə qurbanlarına həsr olunmuş fotoşəkillərdən ibarət sərginin nümayişini həyata keçirib. Bundan əlavə, "Bir" Tələbə-Könüllü Proqramı ilə tələbələr üçün "Azərbaycan Bayrağı" ordenli İbad Hüseynov haqqında çəkilmiş "Xüsusi təyinatlı İbad" filminin nümayişini, Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə "Xocalı: milli tariximizin şəhidlik səhifəsi" mövzusunda tədbir keçirib. Eyni zamanda, orta məktəblərdə Xocalı soyqırımı haqqında tədbirlərdə də Aİİ-nin rəhbər və müəllim heyəti iştirak edib.

# İnstitutun tələbələri M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasını ziyarət ediblər



Azərbaycan İlahiyyat İnstitutunun (AİI) tələbələri 27 fevral 2020-ci il tarixdə Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasını ziyarət ediblər.

Tələbələrə Kitabxananın tarixi, fəaliyyəti və bölmələri haqqında ətraflı məlumat verilib. Bildirilib ki, müəssisə Azərbaycanın ən böyük kitabxanası olmaqla yanaşı, Qafqazda və Avropada da nüfuzlu milli qurumlardan biri kimi tanınır. Burada saxlanılan nəşrlərin sayı 5 milyondan artıqdır.

Qeyd olunub ki, Milli Kitabxana biblioqrafiyaşünaslıq, kitabxanaşünaslıq sahəsində aparıcı müəssisə, ölkənin bütün kitabxanaları üçün elmi-metodiki mərkəz, oxuculara kompleks kitabxana – biblioqrafiya, informasiya xidməti göstərmək, kitabxanalararası abonement, milli və tövsiyə biblioqrafiyası, beynəlxalq və ölkədaxili depozitar mərkəz funksiyalarını yerinə yetirir.

Milli Kitabxanamız 2005-ci ildə Avropa Milli Kitabxanalar Konfransı Beynəlxalq Təşkilatına üzvlüyə qəbul edilib. Keçmiş SSRİ ölkələri arasında Rusiyadan sonra bu təşkilata üzv olmuş ikinci dövlət Azərbaycandır.

Daha sonra tələbələr fondda saxlanılan nüsxələrlə, şöbələrlə tanış olublar.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu tələbələrin dünyagörüşünün, intellektual səviyyəsinin zənginləşdirilməsi, elmi tədqiqat işlərinin aparılmasına marağın artırılması, kitabxanalardan fəal istifadəni təmin etmək məqsədilə müxtəlif tədbirlər həyata keçirir.

# Azərbaycan İlahiyyat İnstitutunda QMİ-nin sədr müavini Qəmər Cavadlının təqdimatında “Bioetika və din” mövzusunda seminar keçirilib




Azərbaycan İlahiyyat İnstitutunda 27 fevral 2020-ci il tarixdə Qafqaz Müsəlmanları İdarəsi (QMİ) sədrinin müavini Qəmər Cavadlının təqdimatında “Bioetika və din” mövzusunda seminar təşkil olunub.

Seminarda çıxış edən AİI-nin rektoru Ceyhun Məmmədov tədbir iştirakçılarını salamlayaraq, mövzu barədə fikirlərini bölüşüb. Qeyd edib ki, Qəmər xanım Cavadlının bu mövzuda qələmə aldığı “İslam və bioetika” kitabı xüsusi əhəmiyyət kəsb edir. Q.Cavadlının geniş araşdırmalar sayəsində ərsəyə gətirdiyi bu elmi əsər dinin bioetika problemlərinə münasibətini tarixi, fəlsəfi və ictimai aspektlərdən tədqiq edir.

QMİ sədrinin müavini Qəmər Cavadlı “Bioetika və din” mövzusunda ətraflı çıxış edib. Bildirib ki, bioetikaya olan maraq, hər şeydən əvvəl, müasir cəmiyyətdə yeni texnologiyaların və tibbi vasitələrin insanlar üzərində sınaqdan keçirilməsinə yönəlik qlobal ictimai marağın göstəricisidir. Bioetikanın fəlsəfi fikrin yeni başlanğıc nöqtəsini təşkil etdiyini vurğulayan Q.Cavadlı onun formalaşması və inkişafının, ümumilikdə, ənənəvi etika ilə tibbi etikanın transformasiyası ilə bağlı olduğunu qeyd edib, bioetikaya olan marağın ciddi hüquqi və mənəvi tənzimlənmə tələb edən bir sıra problemləri gündəmə gətirdiyini, eləcə də dini dünyagörüşü və milli-mənəvi mentaliteti özündə ehtiva etdiyini, müxtəlif dinlərdə bu məsələyə fərqli baxışların olduğunu bildirib.

Q.Cavadlı məruzəsində qloballaşan dünyada elm və din arasında tarazlığın yaradılması, tibbi-bioloji nailiyyətlərin fövqündə dini mentalitetin və əxlaqın qorunub saxlanılması problemlərinə də münasibət bildirib.

Seminar mövzu ətrafında müzakirələrlə davam edib.

# İnstitutun müəllimi beynəlxalq konfransda iştirak edib




Azərbaycan İlahiyyat İnstitutu (AİI) Dinşünaslıq kafedrasının dosenti və AMEA Fəlsəfə İnstitutunun böyük elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru Anar Qafarov 4 mart 2020-ci il tarixdə İslam Tədqiqatları Mərkəzi, Ostroh Akademiyasının Milli Universiteti Şərq bölümü, Fəlsəfə İnstitutu və Ukrayna Milli Elmlər Akademiyası Beynəlxalq İslam Düşüncə İnstitutunun dəstəyi ilə Ukraynanın Kiyev şəhərində təşkil olunan "Şərqi-Mərkəzi Avropada İslamın öyrənilməsi və təhsili: tarixi xüsusiyyətlər və çağdaş perspektivlər" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak edib.

Azərbaycan, Ukrayna, Belarusiya, Polşa, Macarıstan, eləcə də digər ölkələrin alim və mütəxəssislərinin iştirakı ilə keçirilən konfransda Anar Qafarov "Birgəyaşayışın fundamental dəyərlərinin fəlsəfi və dini aspektlərdən analizi" ("Analysis on the Fundamental Values of Coexistence in Terms of Philosophy and Religion") mövzusunda məruzə ilə çıxış edib. A.Qafarov məruzəsində mədəni müxtəlifliyin qloballaşma prosesi və cəmiyyətlər üçün labüd olduğunu qeyd edib. O, bu prosesin lokal və qlobal dəyərlərin bölüşülməsi və müxtəlif mədəniyyətlərə məxsus olan fərdlər arasındakı münasibətlərin inkişaf etməsi baxımından müsbət hadisə olduğunu vurğulayıb.

Məruzəçi, eyni zamanda, cəmiyyətlərdəki mədəni müxtəlifliyin ictimai vəhdət zəminində həll edilməsinin bəzi problemlərə səbəb ola biləcəyini də qeyd edib. Multikultural dəyərlərin və tolerant atmosferin qorunub-saxlanılması istiqamətində siyasi və ictimai sahədə görülən tədbirlərin, praktiki olaraq atılan konkret addımların əhəmiyyətli olduğuna diqqət çəkib. A.Qafarov dünyada birgəyaşayış və multikulturalizmlə əlaqədar baş verən hadisələrdən bəhs edərək, müxtəlif ölkələrdə bu istiqamətdə baş verən xoşagəlməz olaylardan nümunələr gətirib.

A.Qafarov Azərbaycanın multikulturalizm və tolerantlıq istiqamətində nümunəvi ölkə olduğunu qeyd edərək, bu atmosferin qorunub-saxlanılması məqsədilə ölkədə həyata keçirilən siyasi-ictimai addımlardan bəhs edib. O, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncamlara əsasən ölkədə təşkil olunan beynəlxalq tədbirlərlə yanaşı, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Qafqaz Müsəlmanları İdarəsinin və Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyətindən ətraflı şəkildə bəhs edib.

Anar Qafarov sonda iştirakçıların verdikləri sualları cavablandıraraq, Azərbaycanda birgəyaşayış ənənəsinin hüquqi, siyasi və dini əsaslarından bəhs edib.



# Bolqar İslam Akademiyasında “dəyirmi masa”





Azərbaycan İlahiyyat İnstitutunun (AİI) Dillər və ictimai fənlər kafedrasının dosenti, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Şərq-Qərb şöbəsinin müdiri, ilahiyyat üzrə fəlsəfə doktoru Məmmədəli Babaşlı 10 mart 2020-ci il tarixdə Rusiya Federasiyasının Tatarıstan Respublikasında fəaliyyət göstərən Bolqar İslam Akademiyasının dəvəti ilə təşkil olunmuş “dəyirmi masa”da iştirak edib. Bolqar İslam Akademiyası Dinlərarası Dialoq Mərkəzinin təşəbbüsü ilə keçirilən “dəyirmi masa”da Tatarıstan, Başqırdıstan, Dağıstan respublikaları, həmçinin Azərbaycandan dəvət olunmuş ekspertlərin iştirakı ilə “Ali dini təhsilin inkişafında dinlərarası dialoqun rolu” mövzusunda geniş fikir mübadiləsi aparılıb.

Bolqar İslam Akademiyası rektorunun bilavasitə rəhbərliyi ilə keçirilən müzakirələrdə müasir dövrdə dinlərarası dialoqun aktuallığı və ali dini təhsilin qarşısında duran vəzifələr nəzərdən keçirilib. Aparılan müzakirələrdə bu sahədə mövcud vəziyyət ətraflı şəkildə təhlil olunub, məsələnin nəzəri-metodoloji əsaslarının müəyyən edilməsi, praktiki tövsiyə və təkliflərin verilməsinin vacibliyi vurğulanıb. Rusiya Federasiyasında mövcud dini müxtəliflik nəzərə alınaraq səmavi dinlərlə bərabər, Buddizm nümayəndələrinin də layihədə iştirakı məqsədəuyğun hesab olunub. Federal layihənin ilkin variantının hazırlanması məqsədilə ekspertlər qarşısında konkret vəzifələr qoyulub və mərhələli şəkildə növbəti görüşlərin keçirilməsi qərara alınıb.

Müzakirələr başa çatdıqdan sonra “dəyirmi masa” iştirakçılarının akademiyanın tələbələri ilə görüşü keçirilib.

## İnstitutun tələbəsi elmi konfransda iştirak edib

Azərbaycan İlahiyyat İnstitutunun (AİI) Dinşünaslıq ixtisası üzrə II kurs tələbəsi İsgəndər İsgəndərov 2 mart 2020-ci il tarixdə Xəzər Universitetində “Humanitar elmlər: dünən, bu gün və sabah” mövzusunda tələbə elmi konfransında iştirak edib.

İsgəndər İsgəndərov konfransda “Şəriətin məqsədləri (məqasid) təliminin mahiyyəti və ümumbəşəri əhəmiyyəti” mövzusunda çıxış edib. O, məruzəsində “məqasid” məfhumunun tərifi, təsnifatı, dini mətnlərin öyrənilməsi və bir sıra müasir problemlərin həllinin tapılması məsələlərindən danışıb. Qeyd edib ki, “Məqasid” təlimi İslamın mahiyyətini hərtərəfli başa düşməyi, onun mənbələrinə düzgün münasibət bəsləməyi təmin edə bilər.

AİI-nin tələbəsi İsgəndər İsgəndərovun məruzəsi iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Qeyd edək ki, belə tədbirlərdə iştirak tələbələrin elmə marağının artırılmasında, nitq mədəniyyətinin formalaşdırılmasında, ictimai əhəmiyyətli fikirlərinin zənginləşdirilməsində xüsusi rol oynayır. Azərbaycan İlahiyyat İnstitutunda müxtəlif mövzularda seminarlar, “dəyirmi masa”lar, treninqlər və görüşlərin keçirilməsində məqsəd gənclərin dünyagörüşünün, intellektual səviyyəsinin, mənəvi dünyasının zənginləşdirilməsi, onların elmi fəaliyyətə marağının artırılması, bu yöndə onların fəallığına nail olunması və elmi axtarışlara sövq edilməsidir.

# "İslam iqtisadiyyatı" dərsliyi nəşr olunub

Azərbaycan İlahiyyat İnstitutunun (AİI) Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru, dosent Mübariz Camalovun "İslam iqtisadiyyatı" adlı dərsliyi nəşr olunub.

Beş fəsildən ibarət olan "İslam iqtisadiyyatı" dərsliyi İslamın iqtisadi məsələlərə, xüsusilə müasir dövrdə aktual olan problemlərə münasibəti haqqındadır. Kitab İslam iqtisadiyyatının əsas prinsipləri, Mali ibadətlər, Miras hüququ, Müasir məsələlər və Əlavələr bölmələrini əhatə edir.

Birinci fəsildə İslam iqtisadiyyatının ümumi prinsiplərindən bəhs olunur. Burada halal qazancın yolları, mülkiyyət anlayışı və müqavilə nəzəriyyələrindən danışılır. İkinci fəsil zəkat, xüms və sədəqə kimi ibadətlərə həsr olunub. Üçüncü fəsildə İslam hüququnda mühüm yer tutan miras məsələlərinə geniş yer verilib. Dərsliyin dördüncü fəsli isə İslam hüququnun müasir məsələlərini əhatə edir. Bu fəsildə İslam bank sistemi və sığorta haqqında faydalı məlumatlar var. Əlavələr bölümündə isə mehr və nəfəqə haqqında məlumat verildikdən sonra, İslam iqtisadiyyatı ilə bağlı ayə və hadisələr qeyd edilir. Sonda isə İslam iqtisadiyyatı haqqında qısa terminlər lüğəti təqdim olunur.

Qeyd edək ki, kitab ilahiyyat sahəsində təhsil alan tələbələr üçün nəzərdə tutulub.

Məlumat üçün bildirək ki, Azərbaycan İlahiyyat İnstitutu kitab və dərsliklərin nəşri ilə bağlı bir sıra layihələr həyata keçirir. "İlahiyyat nəşrləri" adı altında layihəyə İnstitut müəllimlərinin və bu sahədə çalışan mütəxəssislərin kitablarının nəşri daxildir. Eyni zamanda, ali təhsil müəssisəsinin qarşısına qoyduğu məqsədlərdən biri də ilahiyyat sahəsindəki problemləri araşdırmaq, beynəlxalq standartlara cavab verən tədqiqatlar aparmaq və onları nəşr etdirməkdir.




# Azərbaycan İlahiyyat İnstitutunda distant təhsilə və videodərslərə start verildi

Azərbaycan Respublikasının ərazisində koronavirus xəstəliyinin (COVID-19) yayılmasının qarşısının alınması, ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlərin davam etdirilməsi məqsədilə ölkə ərazisində fəaliyyət göstərən bütün təhsil müəssisələrində tədris prosesinin təxirə salındığını nəzərə alaraq Azərbaycan İlahiyyat İnstitutunda 19 mart 2020-ci il tarixdə videodərslərə start verilib.

İnstitutda təhsil alan tələbələrin dərs prosesindən kənar qalmaması İnstitut müəllimləri ilə videodərslər hazırlanıb. Ali təhsil müəssisəsinin rəsmi "facebook" səhifəsində, "youtube" kanalında yerləşdirilib. Dərslər bütün kursları əhatə edib.

Həmçinin Azərbaycan İlahiyyat İnstitutunda 1 aprel 2020-ci il tarixdən distant təhsilə start verilib.

İnstitutda tələbələrin tədrisdən geri qalmamaları, təhsil proqramlarının mənimsənilməsi məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin tövsiyəsinə əsasən ali təhsil müəssisəsi "Microsoft Teams" platforması üzərindən dərslərə başlayıb. Müəllim və tələbələrin evdə qalaraq həyata keçirdiyi tədris prosesi dərs cədvəlinə və sillabuslara uyğun olaraq aparılır. Proses tədrisin təşkil edildiyi bütün kursları əhatə edir.

Qeyd edək ki, AİI-də distant təhsilin təkmilləşdirilməsi ilə bağlı intensiv tədbirlər həyata keçirilir. Distant təhsil öyrədən və öyrənən arasında əlaqəni telekommunikasiya və kompüter şəbəkələri vasitəsilə operativ, müntəzəm dialoq, əks-əlaqə əsasında, uzaq məsafədən aparır.

Xatırladaq ki, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən 20 aprel 2020-ci ilə qədər ölkə ərazisində fəaliyyət göstərən bütün təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesi dayandırılıb.

# ŞUŞANIN İŞĞAL GÜNÜ İLƏ BAĞLI VİDEOKONFRANS KEÇİRİLİB



Azərbaycan İlahiyyat İnstitutunda (AİI) 8 may 2020-ci il tarixdə Şuşanın işğalının 28-ci ildönümü ilə bağlı videokonfrans keçirilib.

AİI-nin rektoru vəzifəsini müvəqqəti icra edən Aqil Şirinov çıxış edərək bildirib ki, 8 may 1992-ci il tarixdə erməni silahlı qüvvələri tərəfindən işğal olunan Azərbaycanın Şuşa şəhəri Qarabağda strateji cəhətdən ən əhəmiyyətli ərazilərdən biri olub. İşğal nəticəsində Şuşa şəhəri və ətrafında yerləşən kəndlər dağıdılmış, dinc əhaliyə divan tutulmuş, minlərlə insan məcburi köçkünə çevrilərək öz yurdlarından didərgin salınmışdır.

Erməni vandalizmi nəticəsində Şuşada dini abidələr, qəbiristanlıqların dağıdıldığını qeyd edən Aqil Şirinov dünya ictimaiyyətinə bunları çatdırmaq üçün hər bir vətəndaşımızın əlindən gələni əsirgəməməyə hazır olduğunu vurğulayıb.

Aqil Şirinov daha sonra Şuşa şəhərindəki dini ibadətgahlar və mədrəsələr haqqında da bəhs edib. Nəzərə çatdırıb ki, Şuşanın hər məhəlləsinin özünəməxsus məscidi olub. O, Şuşa şəhərinin tarixi mədrəsələrindən bəhs edərkən vurğulayıb ki, belə təhsil ocaqlarından Mirmövsüm Nəvvab kimi ziyalılarımız yetişib.

Videokonfransa qatılan müəllim və tələbələrlə fikir mübadiləsi aparılıb.

# İlahiyyat İnstitutunun müəllimi faşizm üzərində qələbənin 75-ci ildönümünə həsr olunmuş onlayn konfransda iştirak edib




Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsi 9 may 2020-ci il tarixdə Böyük Vətən müharibəsində faşizm üzərində qələbənin 75-ci ildönümünə həsr olunmuş "Vətənin müdafiəsi və azadlığı naminə xalqların və dini icmaların birliyi" mövzusunda elmi və maarifləndirici beynəlxalq onlayn konfrans keçirib. Onlayn konfransda dünyanın on ölkəsindən və Rusiya Federasiyasının 55 vilayətindən təmsilçilər, həmçinin 500-dən çox izləyici iştirak edib.

Telekonfransda Azərbaycan İlahiyyat İnstitutu İslamşünaslıq kafedrasının müdiri, fəlsəfə fəlsəfə doktoru Əhməd Niyazov məruzə ilə çıxış edib.

Əhməd Niyazov konfrans iştirakçılarını salamladıqdan sonra, Azərbaycan xalqının faşizm üzərindəki tarixi qələbədə mühüm rol oynadığını vurğulayıb. O qeyd edib ki, keçmiş SSRİ-nin II Dünya müharibəsindəki qələbəsində əvəzsiz xidmətləri olan Azərbaycan xalqı 700 min övladını cəbhəyə göndərmiş və onlardan 300 min həmvətənimiz öz canını qurban vermişdir. Müharibə zamanı göstərdiyi şücaətə görə, 123 azərbaycanlı “Sovet İttifaqı Qəhrəmanı” adına layiq görülüb; 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şərəfli və rəşadətli hərbi yol keçib və yüzlərlə soydaşımız Avropanın müxtəlif bölgələrində partizan dəstələrinin tərkibində vuruşub.

Qürur hissi ilə qeyd edək ki, Azərbaycan nefti də öz növbəsində bu qələbədə həlledici rol oynayıb.

Ə.Niyazov daha sonra Sovet İtti-

# Azərbaycan İlahiyyat İnstitutunda "Heydər Əliyev və dini dəyərlər" mövzusunda videokonfrans keçirilib




Azərbaycan İlahiyyat İnstitutunda (Aİİ) müəllim və tələbələrinin iştirakı ilə 8 may 2020-ci il tarixdə ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev və dini dəyərlər" mövzusunda videokonfrans keçirilib.

Videokonfransda çıxış edən Aİİ-nin rektoru vəzifəsini müvəqqəti icra edən, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk gündən milli-mənəvi və dini dəyərlərimizin qorunması istiqamətində uzaqgörən addımlar atdığını bildirib. Ölkəmiz müstəqillik qazandığı ilk illərdən tolerantlıq ənənələrinin qorunub saxlanılması və inkişafı, o cümlədən yeni dini ibadətgahların inşası, mövcud olanların əsaslı təmiri və yenidən bərpası istiqamətində çoxsaylı işlər görülüb. O, sovet dövründə tamamilə dağıdılan Bibiheybət məscidinin 1997-ci ildə ümmummilli lider Heydər Əliyev tərəfindən yenidən bərpa etdirildiyini xüsusilə vurğulayıb. Daha sonra A.Şirinov ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə ölkədə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini dəyərlərin qorunması istiqamətində qətiyyətli addımların atıldığını, radikal dini cərəyanların geniş vüsət almasının qarşısının alındığını bildirib. O qeyd edib ki, ulu öndər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətləri hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Aİİ-nin Dillər və ictimai fənlər kafedrasının müdiri, dosent İlkin Əlimuradov çıxışında ölkəmizdə əsrlərdən bəri mövcud olan multikultural dəyərlərin ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi ilə tolerantlıq prinsiplərinin daha da möhkəmləndiyini bildirib. O qeyd edib ki, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması və inkişaf etdirilməsi sahəsində həyata keçirilən tədbirlər yeni mərhələdə onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bildirib ki, multikulturalizm Azərbaycan Respublikasının dövlət siyasəti, xalqımızın həyat tərzinə çevrilib.

Daha sonra Aİİ tələbələri Azərbaycanda mövcud olan multikultural ənənələr, gənclər arasında milli-mənəvi dəyərlərin təbliği haqqında fikirlərini səsləndiriblər.

---

faqının tərkibində yaşayan 20 milyon müsəlmanın sözügedən müharibədə qəhrəmanlıqla vuruşduğunu qeyd edib. Başda Azərbaycan xalqı olmaqla, Sovet İttifaqının tərkibində yaşamış müsəlman xalqları faşizmin işğal siyasətindən qorunmaq üçün əzmkarlıqla mübarizə aparıb. O, qeyd edib ki, haqq-ədalət uğrunda mübarizə, həm də Müqəddəs Qurani-Kərimin əsas prinsiplərindən sayılır.

Ə.Niyazov çıxşının sonunda Rusiya Elmlər Akademiyasının həqiqi üzvü, Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktoru, M.V.Lomonosov adına Moskva Dövlət Universiteti Dünya siyasətinin regional problemləri kafedrasının müdiri, professor Vitali Naumkinə konfransdakı çıxışına görə təşəkkür edib. Məlumat üçün bildirək ki, professor Naumkin konfransdakı çıxışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin faşizm üzərində Qələbə Günü – 9 May ilə bağlı dostluq mesajından bəhs edərək deyib: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya televiziyasında çıxışına böyük maraqla qulaq asdıq. Hesab edirəm ki, bu çıxış, bizim ümumi qələbəmizə qardaş dövlətin başçısının çıxışı kimi nümunə olmalıdır. Mənim dostlarımın çoxu bu çıxışa göz yaşları ilə qulaq asıb. Bu çıxış qələbəyə münasibətin ən parlaq nümunəsidir".

Ə.Niyazov, həmçinin konfransın təşkilatçılarından olan "Səmimiyyət – İslam dini" jurnalının baş redaktoru Səfa Kərimova daim Azərbaycanı və ölkəmizə aid dəyərləri ön planda tutduğuna görə təşəkkürünü bildirib.

# YENİ TƏYİN OLUNAN REKTOR KOLLEKTİVƏ TƏQDİM EDİLİB

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Azərbaycan İlahiyyat İnstitutunun rektoru təyin edilən Aqil Şirinovu 13 may 2020-ci il tarixdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ali təhsil müəssisəsinin rəhbər heyətinə təqdim edib.

Mübariz Qurbanlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Aqil Şirinovun Azərbaycan İlahiyyat İnstitutunun rektoru təyin edilməsi haqqında Sərəncamını diqqətə çatdırıb.

Komitə sədri çıxışı zamanı İnstitutun yaradılma məqsədi, qarşıda duran vəzifələri haqqında danışıb. İnstitutun yetişdirdiyi kadrların milli-mənəvi dəyərlərimizin qorunmasına öz layiqli töhfələrini verəcəyinə ümidvar olduğunu qeyd edib. Aqil Şirinovun elmi fəaliyyətindən bəhs edən Mübariz Qurbanlı yeni təyinatı münasibətilə onu təbrik edib və gələcək fəaliyyətində uğurlar arzulayıb.

Daha sonra çıxış edən rektor Aqil Şirinov ona göstərilən böyük etimada və inama görə, ölkə rəhbərliyinə minnətdarlığını ifadə edib. Vurğulayıb ki, bundan sonra öz fəaliyyətini ali təhsil müəssisəsinin daha da inkişaf etməsinə həsr edəcək.

Məlumat üçün bildiririk ki, Azərbaycan İlahiyyat İnstitutu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamına əsasən, Dini Qurumlarla İş



üzrə Dövlət Komitəsinin tabeliyində yaradılıb. Yeni təyin olunan rektor İnstitutun Elm və innovasiyalar üzrə prorektoru vəzifəsində çalışıb.

## «Oruc ibadətinin hikmətləri» mövzusunda vebinar təşkil olunub



Azərbaycan İlahiyyat İnstitutunun (AİI) tələbələrinə "Oruc ibadətinin hikmətləri" mövzusunda vebinar təşkil olunub.

Vebinarda İnstitutun İslamşünaslıq kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Əhməd Niyazov və kafedranın müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru Vüqar Səmədov çıxış ediblər.

Əhməd Niyazov Ramazan ayı haqqında geniş bəhs edib. O, ictimai sosial ədalətin yerinə yetirilməsi baxımından, bu ayı insanlar üçün fürsət kimi dəyərləndirib. Vurğulayıb ki, digər ibadətlərdə olduğu kimi, orucun da zahiri və batini tərəfləri mövcuddur. Ə.Niyazov Ramazan ayının təyin edilməsi ilə bağlı hilalın görünməsi, pandemiya dövrünə təsadüf edən bir vaxtda möminlərin hansı hallarda və necə oruc tutmaları, məscidlərdə ibadətə icazə verilmədiyi zaman müsəlmanların ramazanla bağlı ayinlərinin fərdi şəkildə yerinə yetirilməsi qaydaları, orucun fidyəsi, kəffarəsi, qəzası və fitrə zəkatı haqqında məsələləri izah edib.

Daha sonra çıxış edən Vüqar Səmədov İslamdan əvvəl də oruc ibadətinin bütün ilahi dinlərdə mövcud olduğunu bildirib. Ramazanın həmrəylik, dostluq, qardaşlıq, sevgi, mərhəmət və ruzi-bərəkət ayı olduğunu diqqətə çatdıran V.Səmədov bu ayın insanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağırdığını qeyd edib. O, Ramazan ayının cəmiyyətin fərdləri arasındakı əlaqənin gücləndirilməsində də xüsusi əhəmiyyətə malik olduğunu vurğulayıb.

Vebinar müzakirələr və tələbələri maraqlandıran sualların cavablandırılması ilə davam edib.

# Yay imtahan sessiyasının keçirilmə qaydaları açıqlanıb

Azərbaycan İlahiyyat İnstitutunda (AİI) 3 iyun 2020-ci il tarixdə keçirilən Elmi Şurada 2019-2020-ci tədris ilinin yaz semestri üzrə təhsilalanların biliyinin qiymətləndirilməsi və yay imtahan sessiyasının təşkili barədə bir sıra qərarlar qəbul edilib.

Cari ilin yaz semestri üzrə təhsilalanların biliyinin qiymətləndirilməsi zamanı onlayn dərslərdə iştirak edən tələbə və magistrantlar tədris əsnasında əldə etdikləri nəticələr əsasında qiymətləndiriləcək və onların dərslərdəki aktivliyi nəzərə alınacaq. Onlayn dərslərdə iştirak etməyən tələbələrin yaz semestri üzrə qiymətləndirilməsi onların yay imtahan sessiyasında toplayacaqları balların 2-yə vurulması ilə həyata keçiriləcək.

Bakalavriat səviyyəsi üzrə II tədris ilində təhsil alan tələbələr kurs işi yazmaq tələbindən azad edilirlər. Buraxılış kurslarının tələbələri də təcrübə və buraxılış işi yazmaq tələbindən azad ediləcək, onların təcrübə işlərinin qiymətləndirilməsi və yekun attestasiya nəticələri təhsil müddətində əldə etdikləri nəticələrə (ÜOMG-yə) əsasən aparılacaq. Akademik borcu ikidən çox olmayan buraxılış kurslarının tələbələrinə fənni dinləmədən imtahan vermək üçün şərait yaradılacaq.

Magistr dissertasiyalarını müdafiə etməyə hazırlaşan magistrantlar məqalə nəşr etdirmək tələbindən azad ediləcəklər. Magistr dissertasiyalarının müdafiəsi İxtisaslaşdırılmış Şurada Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən hazırlanmış “İmtahanlar zamanı koronavirus infeksiyasının (COVID-19) profilaktikasına dair metodiki göstərişlər”ə riayət olunmaqla ənənəvi formada təşkil ediləcək.

Mürəkkəb, eləcə də geniş şərhlər tələb edən mövzuların imtahan materiallarına daxil edilməməsi və imtahan suallarının ümumi sayının azaldılması tövsiyə olunaraq 2019-2020-ci tədris ilinin yay imtahan sessiyasının onlayn formada, əsasən şifahi şəkildə keçirilməsi qərara alınıb.

Qeyd edək ki, COVID-19 infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi 3 mart 2020-ci ildən dayandırılıb. 2019-2020-ci tədris ilinin yay imtahan sessiyasının təşkili və keçirilməsi Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən ali təhsil müəsisələrinə tapşırılıb.

## İmtahan sessiyası ilə bağlı onlayn iclas keçirilib

Azərbaycan İlahiyyat İnstitutunun (AİI) rektoru, rəhbər heyəti, müəllim və tələbələrinin iştirakı ilə 5 iyun 2020-ci il tarixdə yaz semestrinin yay imtahan sessiyası ilə bağlı onlayn iclas keçirilib. İyunun 8-dən başlayaraq 5 həftə davam edəcək sessiya təsdiq edilmiş imtahan cədvəlinə uyğun olaraq onlayn formatda şifahi formada keçiriləcək.

İclasda mövcud şəraitdə cari semestr üzrə tələbələrin biliyinin qiymətləndirilməsi, yay imtahan sessiyasının təşkili və digər məsələlər müzakirə olunub.

Onlayn iclasda çıxış edən AİI-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov bildirib ki, Azərbaycan Respublikası ərazisində koronavirus (COVID-19) xəstəliyinin yayılmasının qarşısının alınması məqsədilə ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin təxirə salındığını nəzərə alaraq, AİI-də cari tədris prosesi ilkin olaraq videodərslər formasında, daha sonra isə Təhsil Nazirliyinin tövsiyəsinə uyğun olaraq onlayn şəkildə “Microsoft Teams” platforması üzərindən keçirilib. Rektor “Microsoft Teams” platformasının üstünlüklərindən danışaraq qeyd edib ki, məsafədən dərslərə qoşula bilməyən tələbələrin daha sonra proqramdan istifadə etmək imkanları olub.

Elmi Şuranın çıxardığı yekun qərara əsasən, imtahanların keçirilməsi ilə bağlı qəbul edilmiş güzəştlərdən ətraflı danışan rektor A.Şirinov tələbələrin onlayn imtahanlarda fəal iştirak etmələrini tövsiyə edib. Daha sonra imtahan sessiyasının mövcud qaydalara uyğun təşkil edilməsi, sualların tərtibi, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin tam təmin olunacağını vurğulayaraq tələbələrə imtahanlarda uğurlar arzulayıb.

İclas tələbələri maraqlandıran suallar ətrafında müzakirə formasında davam edib.

Qeyd edək ki, COVID-19 infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi 3 mart 2020-ci il tarixdən dayandırılıb. 2019-2020-ci tədris ilinin yaz semestrinin yay imtahan sessiyasının təşkili və keçirilməsi Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən ali təhsil müəssisələrinə tapşırılıb.

## AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTUNDA YAY İMTAHAN SESSİYASI BAŞLADI

Azərbaycan İlahiyyat İnstitutunda (AİI) bakalavriat və magistratura səviyyələri üzrə 8 iyun 2020-ci il tarixdə yaz semestrinin yay imtahan sessiyası başlayıb. Beş həftə davam edəcək sessiya təsdiq edilmiş imtahan cədvəlinə uyğun olaraq, “Microsoft Teams” platforması üzərindən onlayn formatda şifahi formada keçirilir.

Xüsusi karantin rejiminin tələblərini və məsafədən tədrisin reallıqlarını nəzərə alaraq, imtahan sessiyasında tələbələrin bilik və bacarıqlarını göstərmələri üçün lazımi şərait yaradılıb.

Qeyd edək ki, Azərbaycan Respublikası ərazisində koronavirus (COVID-19) pandemiyasının yayılmasının qarşısının alınması məqsədilə ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin təxirə salındığını nəzərə alaraq, AİI-də cari tədris prosesi ilkin olaraq videodərslər formasında, daha sonra isə Təhsil Nazirliyinin tövsiyəsinə uyğun olaraq, onlayn şəkildə “Microsoft Teams” platforması üzərindən keçirilib. Tələbələrin imtahanlarda daha fəal iştirak etmələri üçün güzəştlər tətbiq olunur.

İmtahan sessiyasının mövcud qaydalara uyğun təşkil edilməsi, sualların tərtibi, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin tam təmin olunması, sessiyanın gedişi zamanı imtahanların nəticəsindən yarana biləcək narazılıqların araşdırılması və həll edilməsi məqsədilə ali təhsil müəssisəsində Qərargah və onun nəzdində Apelyasiya Komissiyası yaradılıb. Qərargah mövcud şəraitə uyğun olaraq məsafədən onlayn şəkildə fəaliyyət göstərəcək. Daxil olan elektron müraciətlər, şikayətlər qısa müddətdə çevik şəkildə araşdırılacaq və lazımi tədbirlər görüləcək.



# 15 iyun – Milli Qurtuluş Gününə həsr olunmuş videokonfrans keçirilib



Azərbaycan İlahiyyat İnstitutunda (AİI) 12 iyun 2020-ci il tarixdə 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş videokonfrans keçirilib. Videokonfransda AİI-nin rektoru, rəhbər heyəti, müəllimlər və tələbələr iştirak ediblər.

İnstitutun rəhbəri ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov çıxış nitqi ilə videokonfrans iştirakçılarını salamladıqdan sonra, ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində və müstəqilliyimizin qorunmasında misilsiz tarixi xidmətlərindən bəhs edib.

# PSİXOLOQLA TƏLƏBƏLƏRİN ONLAYN GÖRÜŞÜ KEÇİRİLİB



Azərbaycan İlahiyyat İnstitutunun (AİI) psixoloqu İlkin Kazımlının 10 iyun 2020-ci il tarixdə tələbələrlə imtahanqabağı onlayn görüşü təşkil olunub.

İ.Kazımlı tələbələrin imtahan zamanı bir sıra psixoloji və fiziki problem yaşadıqlarını qeyd edib. O bildirib ki, tələbələr daha çox imtahandan sonra meydana çıxa biləcək mümkün problemlər haqqında düşünürlər. Bu düşüncələr isə narahatlığa və stressə səbəb olur.

Psixoloq imtahan gərginliyini aradan qaldıran bir sıra üsullardan da bəhs edib. O, planlı olaraq imtahana hazırlaşmağın, daxili motivasiyanın vacibliyini vurğulayıb. Bildirib ki, stress imtahana girən hər bir şəxs üçün təbii haldır. Orta səviyyədə hiss edilən narahatlıq tələbələri daha çox motivasiya edərək oxumağa həvəsləndirir, onları daha məsuliyyətli olmağa yönəldir.

İ.Kazımlı daha sonra bildirib ki, narahatlıq, gərginlik çox olduqda tələbə stress keçirəcək, bu isə onun həqiqi potensialının üzə çıxmasına və yüksək nəticə əldə etməsinə maneçilik törədəcək. Psixoloq, həmçinin imtahana hazırlıq zamanı tələbələrin diqqət edəcəkləri məqamları da nəzərə çatdırıb. Bildirib ki, vaxtın səmərəli bölgüsü, gündəlik iş qrafiki, planlı çalışmağın təmin edilməsi vacib məqamlardır.

İ.Kazımlı gənclərə bir sıra məsələlərin həllində soyuqqanlı olmağı, qarşılaşdıqları çətinlikləri təbii qəbul etməklə adiləşdirməyi tövsiyə edib. Bəzi problemlərin həllində psixoloji durumun köməklik göstərə biləcəyini də nəzərə çatdırıb.

Görüş zamanı tələbələr onları maraqlandıran sualları psixoloqa ünvanlayıblar.

Məlumat üçün bildirək ki, xüsusi karantin dövründə tələbələrin onlayn dərslərdə fəal iştirak etmələri, pandemiya dövründə stressdən uzaq qalmaq və xüsusi karantin rejiminə adaptasiya ilə bağlı problem yaşayan tələbələrlə psixoloq mütəmadi olaraq onlayn görüşlər keçirib. Yay imtahan sessiyası dövründə İ.Kazımlının problemli tələbələrlə fərdi onlayn konsultasiyalar keçirməsi də nəzərdə tutulub.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutunda bakalavriat və magistratura səviyyələri üzrə yaz semestrinin yay imtahan sessiyası iyunun 8-dən başlayıb. Beş həftə davam edəcək sessiya təsdiq edilmiş imtahan cədvəlinə uyğun olaraq, "Microsoft Teams" platforması üzərindən onlayn formatda şifahi formada keçirilir.

Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunu qoruyub saxlamasının, inkişafının, ölkəmizdə sabitlik və həmrəyliyin təmin edilməsinin bilavasitə Ulu Öndərin xidmətləri ilə bağlı olduğunu vurğulayan rektor A.Şirinov dünya şöhrətli siyasi xadim Heydər Əliyevin yenidən hakimiyyətə qayıtmasının xalqımızın çoxəsrlik tarixinə taleyüklü möhtəşəm siyasi hadisə kimi yazıldığını nəzərə çatdırıb.

Daha sonra AİI rəhbəri əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində aparılan işlər, ölkəmizin inkişafında, milli-mənəvi dəyərlərin zənginləşdirilməsində, dövlət müstəqilliyinin və təhlükəsizliyinin qorunmasında həyata keçirilən siyasət haqqında da məlumat verib.

Rektor qeyd edib ki, Azərbaycanın dünya ölkələri sırasında öz layiqli yerini tutması və milli-mənəvi dəyərlərimizin qorunması, xüsusilə tolerantlığın və multikultural ənənələrin inkişaf etdirilərək dünyaya çatdırılması istiqamətində ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident cənab İlham Əliyevin xidmətləri misilsiz və ölçüyəgəlməzdir.

Videokonfransda çıxış edən AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu Şərq-Qərb şöbəsinin müdiri, AİI-nin dosenti, ilahiyyat üzrə fəlsəfə doktoru Məmmədəli Babaşlı bildirib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrikliklə irəli sürdüyü Azərbaycançılıq ideologiyası həyat tərzimizdə, mənəviyyatımızda, ədəbiyyatımızda, bir sözlə, maddi və mənəvi mədəniyyətimizin bütün sahələrində istiqamətləndirici məfkurəmiz olmalıdır.

Videokonfrans digər iştirakçıların və tələbələrin qarşılıqlı müzakirəsi ilə davam edib.

# Azərbaycan İlahiyyat İnstitutunun müəllimi SOCAR əməkdaşlarına mühazirə oxuyub




Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi və Azərbaycan İlahiyyat İnstitutunun (AİI) dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru Anar Qafarov 27 may 2020-ci il tarixdə SOCAR əməkdaşları üçün təşkil olunan onlayn konfransda "Oruc ibadəti: teoloji, fəlsəfi, psixoloji və sosioloji aspektlərdən" mövzusunda məruzə ilə çıxış edib.

A.Qafarov oruc ibadətinin dini əsaslarından, bu ibadətin fəlsəfi, psixoloji və sosioloji aspektlərinin əhəmiyyətindən danışıb. O, məruzəsi zamanı dünya fəlsəfəsi və ədəbiyyatı ilə yanaşı, Orta əsr və müasir dövr din fəlsəfəsinin mühüm konsepsiyalarını mövzu çərçivəsində analiz edib.

Məruzə dinləyicilər tərəfindən verilən sualların müzakirəsi ilə başa çatıb.

# AİI-nin müəllimi Ümumdünya Səhiyyə Təşkilatının ölkəmiz üzrə Etika komissiyasının iclasında iştirak edib

Azərbaycan İlahiyyat İnstitutunun (AİI) dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru Anar Qafarov 8 iyun 2020-ci il tarixdə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Etika komissiyasının ölkəmizdəki nümayəndəliyinin onlayn iclasında iştirak edib.

Anar Qafarovun da eksperti olduğu ÜST Etika komissiyasının onlayn iclasında pandemiya ilə əlaqədar mövcud vəziyyət və problemlər müzakirə olunub. Dr. Nabil Seyidovun təqdimatı ilə davam edən iclasda, eyni zamanda, cəmiyyətin koronavirus pandemiyasına yanaşması, əhalinin psixoloji vəziyyəti və koronavirusla əlaqədar reaksiya və rəylərinin müəyyənləşdirilməsi istiqamətində aparılacaq sorğu tipləri müzakirə obyektinə çevrilib. İclas, həmçinin iştirakçı ekspertlər tərəfindən verilən suallar, bu istiqamətində aparılan müzakirə və mülahizələrlə sona çatıb.



Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutunun müəllimləri koronavirus (COVID-19) pandemiyası dövründə müxtəlif vebinarlarda aktiv iştirak etmiş, ölkəmizdə mövcud karantin rejiminə riayət olunmasını tövsiyə etmişlər.

# Doktoranturaya ilk dəfə qəbul həyata keçirilib

Azərbaycan İlahiyyat İnstitutunda (AİI) 16 iyun 2020-ci il tarixdə doktoranturaya ilk dəfə qəbul həyata keçirilib. Doktoranturaya keçirilən qəbul imtahanlarında fəlsəfə doktoru proqramı üzrə iki nəfər qəbul olunub: Dinşünaslıq ixtisası üzrə əyani doktoranturaya bir nəfər, Dinin tarixi və fəlsəfəsi ixtisası üzrə əyani doktoranturaya bir nəfər.

Qeyd edək ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 04.12.2019-cu il tarixli 737s nömrəli Sərəncamı ilə İnstitutun 2019-cu il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planları təsdiq edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 01.07.2010-cu il tarixli 129 nömrəli Qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"na əsasən, yüksəkixtisaslı elmi kadrların hazırlanması məqsədilə Azərbaycan İlahiyyat İnstitutunda fəlsəfə doktoru proqramı üzrə doktoranturaya əyani təhsilalma formasını həyata keçirmək, həmçinin dissertantlıq yolu ilə reallaşdırmaq üçün sənəd qəbulu elan olunmuşdur.

Məlumat üçün bildirək ki, Azərbaycan İlahiyyat İnstitutu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılmışdır. AİI-də bakalavr, magistratura və doktorantura səviyyələri üzrə qəbul həyata keçirilir. Qeyd edək ki, 2020-2021-ci tədris ili üçün bakalavriat səviyyəsi üzrə əcnəbi tələbələrin qəbulu da nəzərdə tutulur.

# Mir Məhəmməd Kərim Bakuvinin "Dua məcmuəsi" kitabı Azərbaycan İlahiyyat İnstitutuna hədiyyə edilib

Görkəmli azərbaycanlı təfsir alimi Mir Məhəmməd Kərim Bakuvinin "Dua məcmuəsi" kitabı Azərbaycan İlahiyyat İnstitutuna (AİI) hədiyyə edilib. "Dua məcmuəsi" kitabında salavatın növləri, xüsusi seçilmiş dualar və zikr növləri toplanıb.

Kitab AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu Şərq-Qərb şöbəsinin müdiri, AİI-nin dosenti, ilahiyyat üzrə fəlsəfə doktoru Məmmədəli Babaşlı tərəfindən İnstituta təqdim olunub. Qeyd edək ki, sözügedən kitabı M.Babaşlıya alimin qızı Əliyyə xanım bağışlayıb.



Xatırladaq ki, son illərdə Bakuvinin həyat və yaradıcılığı tədqiqatçılarımız tərəfindən araşdırılır. Repressiya qurbanına çevrilmiş alimin əlyazmalarının böyük hissəsinin aqibətinin naməlum olmasına baxmayaraq, Mir Məhəmməd Kərim Bakuvinin kitabxanasına aid bəzi kitabların bir qismi arxivlərdə qorunub saxlanılır.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutunda dini-elmi əlyazmaların toplanması və tədqiqi ilə bağlı bir sıra işlər görülür. Bu dəyərli əlyazma da AİI-nin silsilə nəşrləri arasında çap edilmək məqsədilə İslamşünaslıq kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Əhməd Niyazov tərəfindən araşdırılır.

# “Multikultural və dinlərarası dialoqda dini kimlik: Azərbaycan və Belçika modeli” mövzusunda videokonfrans keçirilib

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan İlahiyyat İnstitutu (AİI) və Brüssel Protestant İlahiyyatı və Dini Tədqiqatlar Fakültəsinin birgə təşkilatçılığı ilə “Multikultural və dinlərarası dialoqda dini kimlik: Azərbaycan və Belçika modeli” mövzusunda videokonfrans keçirilib.

Açılış nitqi ilə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov çağdaş dünyamızda dini dözümlülüyün mövcudluğunun çox vacib amil olduğunu vurğulayaraq, bu cür görüşlərin təşkilinin mühümlüyündən söz açıb. O, məruzəsində Azərbaycanda birgəyaşayış modelinin beynəlxalq təhlükəsizliyə verdiyi töhfələrdən ətraflı bəhs edib.

Daha sonra Belçika Krallığında fəaliyyət göstərən Brüssel Protestant İlahiyyatı və Dini Tədqiqatlar Fakültəsinin dekanı prof. Yohan Temmerman videokonfrans iştirakçılarını salamlayaraq, tədbirin mövcud əlaqələrin genişləndirilməsində və qarşılıqlı münasibətlərin formalaşmasında əhəmiyyətindən söz açıb.

Brüssel Protestant İlahiyyatı və Dini Tədqiqatlar Fakültəsinin ekspertі və məruzəçisi prof. L.J.Parlevliet dini təhsilin əhəmiyyəti mövzusunda məruzə ilə çıxış edib.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov Azərbaycan tolerantlığının sosial-tarixi və teoloji əsaslarından bəhs edən məruzə ilə çıxış edib.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov çıxışında Azərbaycanda həyata keçirilən multikulturalizm siyasətindən bəhs edərək, mədəniyyətlərarası və dinlərarası dialoq platformasının əhəmiyyətini vurğulayıb.

Videokonfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Xarici əlaqələr şöbəsinin müdiri Əli Həziyev, Azərbaycan İlahiyyat İnstitutunun dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru Anar Qafarov, AİI-nin Xarici əlaqələr üzrə baş mütəxəssisi Şahin Ələsgərov məruzələrlə çıxış ediblər.

Konfransda Azərbaycan və Belçika modelləri başda olmaqla, tolerantlıq və multikulturalizmin müxtəlif modellərinin dərindən araşdırılması, bəşəri dəyərlər sisteminin daha da zənginləşdirilməsinə töhfə verəcək təcrübələrin



sistemləşdirilməsi məqsədilə işçi platformanın yaradılması təklif edilib. Qeyd olunan istiqamətlər üzrə əməkdaşlığın gücləndirilməsi ilə bağlı konkret mexanizmin akademik səviyyədə işlənilməsinin zəruriliyi vurğulanıb, irqçilik, radikalizm, ksenofobiya, islamofobiya, diskriminasiya və dini dözümsüzlük əleyhinə, həmçinin mədəniyyətlərarası, dinlərarası dialoqun inkişaf etdirilməsinə dair müştərək seminar, “dəyimi masa” və konfransların təşkili imkanları müzakirə olunub. Sözügedən məsələlərin araşdırılması məqsədilə hər iki ali təhsil müəssisəsinin müvafiq sahə üzrə alim və mütəxəssislərindən ibarət işçi qrupunun yaradılması prioritet məsələ kimi razılaşdırılıb.



# Azərbaycan İlahiyyat İnstitutunda məzunlarla onlayn görüş keçirilib



Azərbaycan İlahiyyat İnstitutunun (AİI) rektoru, rəhbər heyəti və müəllimlərinin iştirakı ilə 30 iyun 2020-ci il tarixdə məzunlarla onlayn görüş keçirilib.

"ZOOM" proqramı vasitəsilə keçirilən görüşdə AİI-nin bütün məzunları iştirak ediblər.

Görüşdə çıxış edən AİI-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov görüş iştirakçılarını salamladıqdan sonra, Azərbaycan Respublikası ərazisində koronavirus (COVID-19) xəstəliyinin yayılmasının qarşısının alınması məqsədilə ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin təxirə salındığını vurğulayıb.




Elmi Şuranın çıxardığı qərara əsasən, IV kurs tələbələrinin təcrübə və buraxılış işi yazmaq tələbindən azad edilməsindən, onların təcrübə işlərinin qiymətləndirilməsindən, yekun attestasiya nəticələrinin təhsil müddətində əldə etdikləri nəticələrə (ÜOMG-yə) əsasən aparılmasından ətraflı bəhs edən rektor A.Şirinov məzunlara gələcək fəaliyyətlərində uğur qazanmaları üçün planlı şəkildə çalışmağı tövsiyə edib.

İnstitut rəhbəri daha sonra indiki dövrdə hər kəsin karantin qaydalarına ciddi riayət etməsini, sağlamlıqlarını qorumağa borclu olduqlarını xüsusi vurğulayaraq, pandemiya tamamilə bitdikdən sonra builki məzunlarla "Məzun günü"nü qeyd edəcəklərini vurğulayıb.

İnstitutun müəllimləri də çıxış edərək, tələbələrə gələcək həyatlarında müvəffəqiyyətlər diləyib və elmi potensiallarını inkişaf etdirmələri üçün öz tövsiyələrini veriblər.

Görüşdə məzunlar söz alaraq, məhz AİI-nin yetirmələri olduqlarından qürur duyduqlarını, təhsil aldıqları illər ərzində yaşadıqları maraqlı hadisələrdən söz açıblar. Tədris müddətində əziyyət çəkən bütün müəllim kollektivinə təşəkkürlərini bildirib, məzun olan digər yoldaşlarını təbrik edib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.



Azərbaycan İlahiyyat İnstitutu
**Bülleten**
№ 1
yanvar-iyun
2020



















**Təsisçi**
Azərbaycan
İlahiyyat İnstitutu

**Baş redaktor**
Aqil Şirinov

**Redaksiya şurası**
Mirniyaz Mürsəlov
Ayşən Aslanova
Elnarə Ağaoğlu
Rəna Həsrətova

**Məsul redaktor**
Elnarə Ağaoğlu

**Texniki redaktor**
Hilal Ağamoğlanov

**Foto**
Ayaz Mikayıl-zadə

**Ünvan:**
Əhməd Cəmil 41A

**Əlaqə nömrəsi:**
(+994) 12 510 65 45

Tiraj: 500
**"Nurlar"**
Nəşriyyat-Poliqrafiya
Mərkəzində
çap olunub

ait.edu.az
bulleten@ait.edu.az
ilahiyyatinstitutu
ilahiyyatinstitutu